AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* — *№ 17 (1417), 23 - 29 aprel 2019-cu il* — *Qəzet 2001-ci ildən çıxır.*

## XV Avropa Gənclər Olimpiya Festivalının komanda idman növlərinin qrupları müəyyənləşib

Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının komanda idman növləri üzrə yarışlarının qrupları müəyyənləşib. Festivalda üç komanda idman növü üzrə yarışlar keçiriləcək. Bunlar voleybol, basketbol və həndboldur. Voleybol və basketbol yarışları üçün qrupların tərkibi ölkələrin müvafiq yaş qrupları üzrə turnirlərdə göstərilən nəticələr əsasında əldə olunan reytinqlə müəyyən edilib. Buna görə də püşkatma yalnız həndbol yarışı üçün Avropa Həndbol Federasiyasının Vyana qərargahında keçirilib. Bakı-2019-da komanda idman növləri üzrə yarışlar ümumilikdə səkkiz komanda arasında keçiriləcək.

Oğlanlar arasında voleybol yarışlarında A qrupunda Azərbaycan milli komandası ilə bərabər, Almaniya, Rusiya, Belarus komandaları qələbə üçün mübarizə aparacaq. B qrupunda isə bu mübarizə Çexiya, İtaliya, Bolqarıstan və Belçika milli komandaları arasında baş tutacaq. Voleybol üzrə qızların mübarizəsində A qrupunda Rusiya, Bolqarıstan, Rumıniya və Azərbaycan, B qrupunda isə İtaliya, Türkiyə, Belarus və Almaniya milli komandaları yer alıb.

Basketbol üzrə oğlanların mübarizəsində A qrupunda Xorvatiya, Fransa, Serbiya və Azərbaycan millisi, B qrupunda isə İspaniya, Türkiyə, Yunanıstan və Litva millləri yarışacaqlar. Qızların mübarizəsində A qrupunda İtaliya, Fransa, Rusiya və Belçika, B qrupunda isə Çexiya, Türkiyə, Macarıstan və Polşa millləri yer alıb.

Püşkatmanın nəticələrinə əsasən oğlanlar arasında həndbol yarışında Azərbaycan millisi A qrupunda Danimarka, Almaniya, Serbiya milli komandaları ilə qələbə uğrunda mübarizə aparacaq. B qrupunda isə bu mübarizə İslandiya, Xorvatiya, Fransa və Sloveniya milli komandaları arasında baş tutacaq. Həndbol üzrə qızların yarışında A qrupunda Fransa, Rumıniya, Hollandiya və İspaniya, B qrupunda isə Macarıstan, İsveçrə, Çexiya və Azərbaycan milliləri yarışacaqlar.



## Bakıda keçirilən bədii gimnastika üzrə II AGF Junior Trophy beynəlxalq turnirinə yekun vuruldu

Aprelin 20-21-də Bakıda bədii gimnastika üzrə II AGF Junior Trophy beynəlxalq turniri keçirildi. Milli Gimnastika Arenasında təşkil edilən yarışlarda dünyanın 20 ölkəsindən 130-a yaxın bədii gimnast mübarizə apardı. Yarışlarda Beynəlxalq Gimnastika Federasiyasının (FIG) qaydalarına əsasən, yalnız 2004-2006-cı il təvəllüdlü gimnastlar qüvvələrini sınadılar. Gimnastlar medallar uğrunda həm fərdi, həm də qrup hərəkətləri proqramında mübarizə apardılar.

*(ardı 2-ci səhifədə)*

## Olimpizm

### Olimpiadanın biletləri mayın 9-da satışa çıxarılacaq

Gələn il Tokioda keçiriləcək XXXII Yay Olimpiya və XVI Paralimpiya Oyunlarının ilk biletləri mayın 9-da satışa çıxarılacaq.

Bu barədə təşkilat komitəsi məlumat yayıb. Biletlərin ilk komplekti xüsusi lotereya vasitəsilə satışa çıxarılacaq. Bu biletləri əldə etmək istəyənlər oyunların saytında qeydiyyatdan keçməli və bu barədə müraciət yerləşdirməlidirlər. Biletlərin potensial alıcıları Yaponiya ərazisində yaşamalıdırlar. Lotereyanın nəticələri iyunun 20-də elan ediləcək.

Cari ilin payızında biletlərin satışının ikinci mərhələsi başlanacaq. Bu mərhələdə ilk turda müraciət edən, lakin bilet ala bilməyənlər iştirak edəcəklər. Oyunlara biletlərin sərbəst satışına yalnız 2020-ci ilin yazında başlanacaq.

Təşkilatçılar bildiriblər ki, tamaşaçılara təklif edilən milyonlarla biletin qiyməti 2500 yen (təqribən 22 dollar), əsas paket üçün isə 8000 yen (təqribən 72 dollar) müəyyən edilib.

### Tokio Olimpiya Oyunlarının cədvəli açıqlanıb

2020-ci ildə Tokioda keçiriləcək Olimpiya Oyunlarının Təşkilat Komitəsi yarışların və tədbirlərin tam cədvəlini elan edib. Bu cədvəl Təşkilat Komitəsinin internet saytında yerləşdirilib.

Olimpiya Oyunlarının proqramına 33 idman növü daxildir. Beysbol/softbol, karate, sörfinq, qayayadırmanma və skeytbordinq üzrə yarışlar ilk dəfə keçiriləcək. Oyunların açılış mərasimi iyulun 24-də olacaq, bundan iki gün əvvəl isə qadın futbolu və softbol yarışları başlayacaq. Medalların ilk dəstinin qalibləri iyulun 25-də pnevmatik tüfəngdən 10 metr məsafədən atıcılıq üzrə qadınların turnirində məlum olacaq.

Yarışlarda daha çox final mərhələləri avqustun 1, 2 və 8-də keçiriləcək. Həmin günlər Tokioda müvafiq olaraq 21, 26 və 30 dəst medallar öz sahiblərinə təqdim ediləcək. Bundan başqa, yüngül atletikanın bir çox növü, o cümlədən sprinter qaçışları üzrə yarışların qalibləri də müəyyən ediləcək. Kişilər arasında marafonun final mərhələsi Olimpiya Oyunlarının bağlanış günü - avqustun 9-da keçiriləcək.

Qızmar havaların gözlənilməsi səbəbindən idmançıların və azarkeşlərin səhhəti üçün risklərin qarşısını almaq məqsədilə yarışların əksəriyyəti səhər vaxtı keçiriləcək. İyulun əvvəlində Tokioda aparılacaq Olimpiya məşəlinin estafet marşrutu da təsdiq olunub. O, 2020-ci il martın 26-da Fukusima prefekturasından start götürəcək və 121 gün davam edəcək.

2020-ci il Tokio Olimpiya Oyunları iyulun 24-dən avqustun 9-dək keçiriləcək.

### Olimpiya çempionu diskvalifikasiya edildi

Keniyalı atlet Asbel Kiprop antidopinq qaydalarını pozduğuna görə 4 il müddətinə diskvalifikasiya edilib. Antidopinq qaydalarına riayət olunmasına nəzarət edən müstəqil orqan (Athletics Integrity Unit, AIU) bildirib ki, bu idmançının diskvalifikasiya edilməsi müddəti 2018-ci il fevralın 3-dən hesablanır.

Kipropun dopinq probasının müsbət nəticə verməsi keçən ilin may ayında məlum olub. Onun qanında eritropoetin maddəsi aşkar edilib. 2018-ci ilin mart ayında Yüngül Atletika Federasiyalarının Beynəlxalq Assosiasiyası (İAAF) Kiprop antidopinq qaydalarını pozmaqda ittiham edib. İdmançı dopinq zabitlərini dopinq probunun dəyişdirilməsində günahlandırıb, lakin AIU bunu sübut edən dəlillər tapmayıb. Kiprop bu dəfə AIU-nu təhqiqat zamanı məxfiliyi pozmaqda ittiham edib, lakin bu ittiham da sübut olunmayıb.

Keniyalı Kiprop 2008-ci il Olimpiya Oyunlarında 1500 metr məsafəyə qaçışda qalib gəlib, həmçinin 3 dəfə (2011, 2013 və 2015-ci illərdə) dünya çempionu olub.

İAAF Antidopinq qaydalarına riayət olunmasına nəzarət edən müstəqil orqan yaradılmasını 2017-ci ilin yayında elan edib.

## Minskdə Rusiya Yığmasının Azarkeşlər Evi açılacaq

Minskdə Avropa Oyunlarında Rusiya Yığmasının Azarkeşləri Evi fəaliyyət göstərəcək. Rusiya Olimpiya Komitəsinin rəhbəri Stanislav Pozdnyakov bu obyektin iyunun 20-də açılacağını bildirib.

Rusiya Olimpiya Komitəsinin rəhbəri deyib: "Belarusda bizim idmançıları dəstəkləməyə gələcək bütün azarkeşləri görmək bizim üçün xoş olacaq. Onları görmək və səylərini birləşdirmək mühümdür. Bu məqsədlə Minskdə Rusiya Yığmasının Azarkeşləri Evi fəaliyyət göstərəcək. O, şəhərin mərkəzində böyük və gözəl binada - Moskva Evində yerləşəcək. Tədbirlər keçirmək üçün ətraf ərazilərdən də istifadə ediləcək".

Qeyd edək ki, Minskdəki Moskva Evi Moskva Beynəlxalq Əməkdaşlıq Mərkəzinin nümayəndəliyidir. Onun yerləşdiyi bina Belarus paytaxtının tarixi mərkəzindədir.

İkinci Avropa Oyunları iyunun 21-dən 30-dək Minskdə keçiriləcək. Azərbaycanda keçirilən Birinci Avropa Oyunları zamanı Bakıda da Rusiya Yığmasının Azarkeşləri Evi təşkil olunmuşdu. O, Azərbaycan sakinlərinin və şəhərin qonaqlarının sevimli yerinə çevrilmişdi.

## XV Avropa Gənclər Olimpiya Festivalına 89 gün qalır





## II Avropa Oyunlarına 59 gün qalır

## Anons

*"Olimpsport" jurnalının 10 illik yubileyi qeyd olunub* — Səh. 2

*"Nəhənglər"in Estoniya zəfəri* — Səh. 2

Şahmatçımız İspaniyada gümüş medala layiq görülüb — Səh. 4

Budapeşt dünya çempionatına ev sahibliyi edir — Səh. 4

*Ağırlıqqaldırma üzrə mərhələ yarışlarına start verilib* — Səh. 6

*Velosipedçilər açıq birincilikdə yarışıblar* — Səh. 6

"Qarabağ"ın Qəbələ, "Zirə"nin Sumqayıt sınağı — Səh. 7

"Futbol hakimliyi çox təhlükəli peşədir" — Səh. 7

# Bakıda keçirilən bədii gimnastika üzrə II AGF Junior Trophy beynəlxalq turnirinə yekun vuruldu

## *Bədii gimnastlarımız yarışları 6 medalla başa vurdular*



*(əvvəli 1-ci səhifədə)*

Ayrı-ayrı alətlər (ip, top, gürzlər və lent) üzrə qaliblərin adlarına final mərhələsindən sonra aydınlıq gəldi. İplərlə hərəkətlərdə yarışların qızıl medalını rusiyalı gimnast Anastasiya Simokova (18.600 xal) qazandı. Gümüş medala Simokova ilə eyni xalı toplamış İtaliya gimnastı Sofiya Raffaeli layiq görüldü. Gimnastımız Arzu Cəlilova (17.350 xal) isə yarışların bürünc



medalını boynundan asdı. Digər gimnastımız Nərminə Səmədova (16.900 xal) isə 6-cı pillədə qərarlaşdı.

Rusiyalı gimnast Anastasiya Simokova (19.700) ikinci qızıl medalına topla hərəkətlərdə sahib çıxdı. Sofiya Raffaeli (19.300 xal) bu yarışlarda da 2-ci oldu. Həmyerlimiz Nərminə Səmədova isə topla hərəkətlərdə (17.750 xal) bürünc medala sahib çıxdı.

Digər gimnastımız Arzu Cəlilova (16.100 xal) 8-ci yerlə kifayətləndi.

Lentlərlə hərəkətlərdə yenə də İtaliya gimnastı fərqləndi. Sofiya Raffaeli (18.350 xal) bütün rəqiblərini üstələyərək qızıl medalı boynundan asdı. Azərbaycan gimnastı Nərminə Səmədova (18.000 xal) gümüş medal qazanaraq fəxri kürsünün ikinci pilləsində qərar tutdu. İsrail təmsilçisi Asya Adi Katz (17.400 xal) üçüncü yerlə kifayətləndi. Həmyerlimiz Arzu Cəlilova (17.100 xal) isə dördüncü pillədə qərarlaşdı.

Gürzlərlə hərəkətlərdə mükafatalayiq yerləri İtaliya, Rusiya və İsrail təmsilçiləri tutdular. Sofiya Raffaeli (19.200 xal) bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsində qərar tutdu. Rusiyalı idmançı Sofya Aqafanova (18.600 xal) medalçılar siyahısında 2-ci yerdə qərarlaşdı. İsrail gimnastı Asya Adi Katz (18.550 xal) isə üçüncü yeri tutdu.

Beləliklə, Azərbaycan gimnastları fərdi yarışlarda 3 (1 gümüş, 2 bürünc) medal qazandılar.

Daha 3 (1 qızıl, 2 gümüş) medal isə komanda yarışlarında əldə edildi. Yarışların ilk günündə Mədinə Əsədova, Ləman Əlimuradova, Selcan Hacızadə, Milana Əkbərova və Fəridə Səfiyarzadədən ibarət qrup komandamız yekunda 41.000 xal toplayaraq turnirin gümüş medalına sahib oldu. İsrail komandası (42.000 xal) qızıl, Rusiya gimnastları (40.000 xal) bürünc medal qazandılar.

Qrup komandamız ikinci gümüş medalı beş lentlə yarışlarda əldə etdi. Gənc gimnastlarımızın çıxışları münsiflər heyəti tərəfindən 18.350 xalla qiymətləndirildi. Beynəlxalq turnirin baş mükafatını isə komandamız beş halqa ilə hərəkətlərdə qazandı. Onlar hakimlərdən 21.500 xal aldılar. Eyni xala malik olan İtaliya yığması əlavə göstəricilərə görə komandamızdan geri qalaraq ikinci oldu. Belarus təmsilçiləri isə 20.100 xalla ilk üçlüyü qapadılar.

Məlumat üçün bildirək ki, gimnastımız Arzu Cəlilova və qrup komandamız Azərbaycan Gimnastika Federasiyasının təsis etdiyi xüsusi mükafat - "AGF Trophy" ilə mükafatlandırıldı.

### *Mariana Vasileva: "Həm fərdi gimnastlarımız, həm də komandamız uğurlu nəticə əldə etdilər"*

Azərbaycanın bədii gimnastika üzrə yığmasının baş məşqçisi Mariana Vasileva yarışdan sonra öz təəssüratlarını "Olimpiya dünyası" ilə bölüşdü:

- Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə II "AGF Junior Trophy" beynəlxalq turnirində həm fərdi gimnastlarımız, həm də komandamız uğurlu nəticə əldə etdilər. Azərbaycan Gimnastika Federasiyasının dəstəyi və inamı olmadan biz heç vaxt belə bir nəticəyə nail ola bilməzdik. Ona görə də federasiyaya öz minnətdarlığımı bildirirəm. Həmçinin qazanılan uğurlara görə bütün komandaya təşəkkür edirəm.

Azarkeşlər bizi sonacan dəstəklədilər. Azərbaycan dövlət himni səslənəndə bütün arenanın ayağa qalxaraq qalib komanda ilə birgə himni oxuması məni fərəhləndirdi, gözlərim yaşardı. Ümid edirəm ki, gələn həftə keçiriləcək bədii gimnastika üzrə Dünya kuboku yarışlarında da gimnastlarımız uğurla çıxış edəcək və bizləri sevindirəcəklər.

### *"Nəticədən razı qaldım"*

Beynəlxaq turnirdə lentlə hərəkətlərdə gümüş və topla hərəkətlərdə isə bürünc medal qazanan Nərminə Səmədova qələbə sevincini bizimlə bölüşdü:

- Nəticədən razı qaldım, lakin daha yaxşı çıxış edə bilərdim. Gürzlərlə hərəkətlərdə mən balaca səhvə yol verdim, o səhvə yol verməsəydim, birinci yeri tuta bilərdim.

Azarkeşlərə minnətdarlığımı bildirirəm. Onların dəstəyinə hər zaman ehtiyacımız var. 2019-cu ilin iyul ayında Moskvada keçiriləcək gənclər arasında bədii gimnastika üzrə ilk dünya çempionatına hazırlaşırıq. Məşqlərdə maksimum səylə işləyirik.

### *"Arzum Avropa və dünya çempionu olmaqdır"*

Yarışların bürünc mükafatçısı, "AGF Trophy" mükafatına layiq görülən gimnastımız Arzu Cəlilova çıxışı barədə danışdı:

- Turnirə hazırlıqlar çox çətin keçdi. Amma biz öhdəsindən gəlməyi bacardıq. Bizə göstərdiyi dəstəyə və köməyə görə Azərbaycan



Gimnastika Federasiyasına minnətdarlığımızı bildiririk.

Doğma divarlar arasında çıxış etmək idmançıdan böyük məsuliyyət tələb edir. Çıxışıma gəlincə, bundan yaxşı çıxış edə bilərdim. "AGF Trophy" mükafatına layiq görüldüm. Bu, mənim üçün qürurvericidir. Bundan sonrakı yarışlarda daha inamla yarışacağam. Bizi qarşıda Qvadalaxarada keçiriləcək beynəlxalq turnir və iyul ayında gənclər arasında dünya çempionatı gözləyir. Arzum Avropa, dünya çempionu olmaq, Olimpiya Oyunlarında iştirak etməkdir.

*Səadət Hakıyeva*



# "Olimpsport" jurnalının 10 illik yubileyi qeyd olunub

"Olimpsport" jurnalının fəaliyyətə başlamasının 10 illik yubileyi münasibətilə Beynəlxalq Mətbuat Mərkəzində tədbir keçirilib.

Tədbirdə idman ictimaiyyətinin nümayəndələri və Aprel şəhidlərinin ailə üzvləri iştirak ediblər.

Əvvəlcə, jurnalın on illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. Videoçarxda "Olimpsport" jurnalının təbliğ etdiyi idman və Olimpiya Hərəkatına dair görüntülərlə yanaşı, cəmiyyətdə nüfuz sahibi olan tanınmış şəxslərin bu nəşr barədə fikirləri əks olunub.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov çıxışında ölkəmizdə idmanın inkişafının təbliğində "Olimpsport" jurnalının rolundan danışıb. O, idman jurnalistikasının inkişafında səmərəli fəaliyyətinə görə və on illik yubiley münasibətilə jurnalın baş redaktoru Ramin Allahverdiyevə diplom təqdim edib.

"Olimpiya dünyası" qəzetinin baş redaktorunun müavini, Əməkdar jurnalist Aslan Şirəliyev, Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Firdovsi Umudov, I-S dərəcəli beynəlxalq hakim Hicran Şərifov və Azərbaycan Voleybol Federasiyasının baş katibi Elşən İsmayılov "Olimpsport" jurnalının rəhbərliyi və yaradıcı heyəti barədə fikirlərini bölüşüb, yubiley münasibətilə təbriklərini çatdırıblar.

Jurnalın baş redaktoru, sərbəst güləş üzrə Əməkdar məşqçi, fəxri bədən tərbiyəsi və idman işçisi Ramin Allahverdiyev tədbirdə iştirak edən qonaqlara minnətdarlığını bildirib.

Sonra Azərbaycan Mətbuat Şurasının, "Olimpiya dünyası" qəzetinin və "Olimpsport" jurnalının birgə keçirdiyi sorğu nəticəsində "Son 10 ilin ən yaxşıları" nominasiyası üzrə nəticələr açıqlanıb.

Müxtəlif nominasiyalar üzrə "Qızıl 10-luq"da yer alan şəxslərə mükafatlar təqdim olunub. Jurnalın baş redaktoru Ramin Allahverdiyevin təşəbbüsü ilə son on ilin ən yaxşı dünya çempionu nominasiyası üzrə mükafata bu ay Avropa çempionu olan və qələbəsini Aprel şəhidlərinə həsr edən Hacı Əliyev layiq görülüb.

# "Nəhənglər"in Estoniya zəfəri

Estoniyanın paytaxtı Tallində sumo üzrə XXIII Avropa çempionatı keçirilib. 17 ölkədən 300-dən çox idmançının mübarizə apardığı yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar.

Yarışlarda ölkəmizi Camal Feyziyev (115 kq), Avropa çempionları Məhərrəm Eyvazov (60 kq) və Çingiz Səmədov (100 kq), qitə birinciliyinin mükafatçısı Cavid Feyziyev (115 kq) və Azərbaycan çempionu Nahid Vəliyev (60 kq) təmsil ediblər. İdmançılarımız yarışda Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayevin rəhbərliyi altında mübarizə aparıblar.

Qarşılaşmaların idarə olunmasında Azərbaycanı beynəlxalq dərəcəli hakim Rəsul Həsənov təmsil edir.

Komandamız yarışda uğurla təmsil olunub. Sumoçularımızdan Camal Feyziyev mütləq və 115 kiloqramdan yuxarı çəki dərəcələrində Avropa çempionu olaraq iki qızıl medal qazanıb. İlk görüşdə Polşa idmançısını məğlub edən C.Feyziyev yarımfinalda Gürcüstan təmsilçisini üstələyib. Sumoçumuz finalda gürcüstanlı daha bir idmançını məğlub edərək Avropa çempionu olub.



C.Feyziyev mütləq çəkidə isə ilk görüşdə Rusiya idmançısından üstün olub. Ukraynalı sumoçunu da məğlub edən C.Feyziyev yarımfinalda Polşa təmsilçisini mübarizədən kənarlaşdırıb. Finalda daha bir ukraynalı idmançını məğlub edən C.Feyziyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Yarışın növbəti günündə komandamız aktivinə daha bir medal yazdırıb. Azərbaycan sumoçusu Çingiz Səmədov 100 kiloqram çəki dərəcəsində Avropa çempionatının qızıl medalına layiq görülüb. İlk görüşdə Polşa idmançısını məğlub edən Ç.Səmədov dördəbir finalda Rusiya təmsilçisini üstələyib. Sumoçumuz yarımfinalda gürcüstanlı idmançını məğlub edərək finala vəsiqə qazanıb. Ç.Səmədov finalda daha bir polşalı rəqibini məğlub edərək Avropa çempionu olub.

Qeyd edək ki, Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayev sumonun inkişafında göstərdiyi xidmətlərə görə 5-ci dan sertifikatı ilə təltif olunub. Ona bu mükafatı Avropa Sumo Federasiyasının prezidenti Dariuş Rozum təqdim edib.

# Rafael Ağayev bu dəfə bürünc medal qazandı

Mərakeşin paytaxtı Rabatda Dünya Karate Federasiyasının (WKF) "Karate 1" seriyasından Premyer Liqa turniri başa çatıb.

Karateçimiz Rafael Ağayev (75 kq) yarışın bürünc medalını qazanıb. Fransalı idmançı Loqan Da Kostaya həlledici görüşdə 2-0 hesabı ilə qalib gələn idmançımız dünya və olimpiya reytinq xallarını artırmaqla mövqeyini möhkəmlədib.

Milli komandanın üzvlərindən Turqut Həsənov və Pənah Allahverdiyev (84 kq) təsəlliverici görüşlərə qatılsalar da, mükafatçılar arasına düşə bilməyiblər.



"Karate 1" seriyasından üçüncü nüfuzlu yarışda 78 ölkədən 661 idmançı mübarizə aparıb.

# Dohada dünyanın ən böyük atletika sərgisi açılıb

Beynəlxalq Atletika Federasiyasının (BAF) təşkilatçılığı ilə Qətərin paytaxtı Dohada dünyanın ən böyük atletika sərgisi açılıb.

Sərginin məqsədi 36 il əvvəl keçirilən ilk dünya çempionatından etibarən təşkil olunan dünya birinciliklərinin irsini və idmanın bu növünü təbliğ etməkdir.

Sərgi müddətində bir sıra hədiyyələr toplanıb. Dördqat Olimpiya çempionu Lasse Viren 1976-cı ildə Monreal Olimpiadasında geyindiyi idman ayaqqabılarını sərgiyə hədiyyə edib.



BAF-ın prezidenti Sebastian Co 1984-cü ildə Los-Anceles Olimpiya Oyunlarında geyindiyi ayaqqabıları və milli komandanın formasını sərgiyə bağışlayıb.

Ərazisi 400 kvadratmetr olan sərgi altı ay ərzində hər gün ictimaiyyətə açıq olacaq. Oktyabrın 7-də başa çatacaq sərginin davam etdiyi müddətdə Dohada minlərlə atletin mübarizə aparacağı Asiya çempionatı, "Brilyant liqa" və dünya çempionatı keçiriləcək.

Dəyirmi masa

**_Yeniyetmə və gənclərin sağlam, vətənpərvər ruhda böyümələrində idman əvəzsiz rola malikdir. İdmançılarımızın beynəlxalq arenalarda əldə etdiyi nailiyyətlər digərləri üçün də əlavə stimul yaradır. Əgər indiki nəsil Olimpiya, dünya, Avropa çempionlarımızı, mükafatçılarımızı özlərinə kumir seçib idmana gəliblərsə, bugünkü idmançılar da gələcək nəsil üçün nümunə olurlar. Gənc taekvondoçularımız Cavad Ağayev və Minayə Əkbərova da belələrindəndirlər. Onların hər ikisi ötən il Argentinada keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında iştirak ediblər. Cavadın bu mötəbər idman yarışında bürünc medal qazanması onu deməyə əsas verir ki, taekvondo ölkəmizdə yüksək inkişaf mərhələsindədir._**

**_Bu yaxınlarda gənclərdən ibarət yığma komandamızın baş məşqçisi Məmməd Abdullayev və gənc idmançılarımız redaksiyamızın qonağı oldular. Dəyirmi masanın budəfəki iştirakçıları idmandakı uğurlarından danışdılar. Onlarla birlikdə baş məşqçi Məmməd Abdullayev də bizi maraqlandıran suallara aydınlıq gətirdi._**

# "İdmançılar qələbə ruhunda tərbiyə olunmalıdır"





***- Hazırda yığma komandada vəziyyət necədir?***

- **Məmməd Abdullayev:** Komandamızda hər şey yaxşıdır. Məşqlərimiz davam edir. Yığma komandamızın tərkibi artıq müəyyənləşdirməkdir və yeni heyət formalaşır. Hələ ki, heç kim milli komandadan kənarda qalmayıb.

***- Qarşıda milli komandamızı hansı yarışlar gözləyir?***

- **Məmməd Abdullayev:** Biz hər il fevral ayında ənənəvi olaraq beynəlxalq turnirlərdə iştirak edirik. Lakin bu il belə qərara gəldik ki, gənclər may ayına qədər heç bir yarışda iştirak etməsinlər. 2020-ci ildə Tokio Olimpiadasına hazırlıq məqsədilə əsas diqqətimizi hələ ki, böyüklərə yönəltmişik. Sentyabr ayında təşkil ediləcək dünya çempionatında mükafat qazanan idmançılar Olimpiadaya lisenziya xalı əldə edəcəklər. Çalışmaq lazımdır ki, taekvondoçularımız təkcə fiziki və taktiki-texniki cəhətdən yox, həm də psixoloji cəhətdən bu çətin sınağa hazır olsunlar.



***- Psixoloji hazırlıqdan söz düşmüşkən, sizcə, bu amil qələbəyə gedən yolda nə qədər əhəmiyyətlidir?***

- **Məmməd Abdullayev:** Deyərdim ki, psixoloji hazırlıq ümumi hazırlığın 40 faizini təşkil edir. Ola bilsin ki, idmançı fiziki, texniki-taktiki cəhətdən yarışa tam hazırdır, lakin əgər özünə inanmırsa, ən yaxşı halda bir neçə görüşdə qalib gələ bilər. Bu baxımdan "inam qələbənin yarısıdır" fikiri heç də təsadüfi deyil. Minayənin psixoloji hazırlığında müəyyən qədər çatışmazlıq var, lakin Cavad bu cəhətdən müsbət mənada fərqlənən idmançılarımızdandır. Məhz özünəinamı sayəsində o, çətin döyüşlərdən qalib ayrıla bilər.

## "Əgər özümə inanmasaydım, bunu bacarmazdım"

- **Cavad Ağayev:** Məmməd müəllimin də dediyi kimi, psixoloji hazırlıq olduqca mühümdür. İdmançı həm özünə, həm də müəlliminə inanmalıdır. Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında çox çətin qrupa düşmüşdüm, rəqiblərim olduqca güclü idilər. Buna baxmayaraq, sona kimi əzmkarlıqla mübarizə apardım və vətənə bürünc medalla qayıtdım. Əgər özümə inanmasaydım, bunu bacarmazdım.

***- Yeniyetmələrin III Olimpiya Oyunlarından danışdınız, maraqlıdır ki, Argentinada olduğunuz müddət ərzində hansı xalqların mədəniyyəti sizi daha çox cəlb etdi?***

- **Cavad Ağayev:** Buenos-Ayres-də bir sıra mədəni proqramlarda və tədbirlərdə iştirak etdik. Bu yarışda müxtəlif mədəniyyətlərlə tanış olduq. Xüsusilə argentinalıların adət-ənənələri məni özünə cəlb etdi. Ümumiyyətlə, dünyagörüşünün artırılması, yeni insanlar tanımaq və dostlar qazanmaq baxımından bu kimi yarışların böyük əhəmiyyəti var.

- **Minayə Əkbərova:** Daha çox türkdilli xalqları təmsil edən idmançılarla, o cümlədən qazaxlarla ünsiyyətdə olurdum. Əlbəttə ki, bu, dilimizin, dinimizin, mədəniyyətimizin ortaq olması ilə bağlıdır. Həmin vaxt bütün idmançılara kartlar verilmişdi. Biz həmin kartları yaxınlaşdıraraq bir-birimizin şəxsi məlumatlarını öyrənə bilirdik. Bu, bir idmançının digərini tanıması baxımından olduqca maraqlı və əhəmiyyətli vasitə idi.

***- Məmməd müəllim, həm Cavad, həm də Minayə kifayət qədər təcrübəli idmançılardırlar. Yetirmələrinizdə bəyəndiyiniz və bəyənmədiyiniz xüsusiyyətlər nələrdir?***

- **Məmməd Abdullayev:** Ümumilikdə hər iki idmançıdan razıyam. İkisinin də nizam-intizamı yüksək səviyyədədir. Lakin Cavad psixoloji cəhətdən daha hazırlıqlıdır, yarışlarda özünü sərbəst, soyuqqanlı aparmağı bacarır. Minayə isə bəzən özünü itirir. Elə bu nüans da ona çox mane olur. Çalışırıq ki, tədricən bu xüsusiyyəti aradan qaldıraq.

## "Bu, sevgidən xəbər verir"

***- Tez-tez idman yarışlarında görürük ki, uduzan tərəf hirsli olur və soyuqqanlılığını saxlaya bilmir. Bəs, əsəb idmançıya qələbə gətirə bilərmi?***

- **Cavad Ağayev:** Belə bir misal var ki, hirsli başda ağıl olmaz. İnam və hirs ayrı-ayrı amillərdir. İdmançı, əlbəttə, özünə inanmalıdır, lakin həm də təmkinini saxlamağı bacarmalıdır. Belə düşünürəm ki, soyuqqanlı olmayan idmançının qələbə qazanması çox çətindir. Bu, təkcə taekvondoda yox, bütün idman növlərində də belədir.

- **Minayə Əkbərova:** Məncə, az da olsa daxildə hirs olmalıdır. İdmançı başa düşməlidir ki, o, nəyin bahasına olursa olsun, qələbə qazanmalıdır. Fikrimcə, bu hiss həmişə idmançıya kömək olur. Əks təqdirdə uduzan idmançı üçün yenidən qələbə qazanmaq və revanş almaq maraqsız olar.

***- Sizcə, normal məşqçi-idmançı münasibətləri necə olmalıdır?***

- **Məmməd Abdullayev:** İdmançı və məşqçi hər şeydən əvvəl bir-birlərinə inanmalıdırlar. Hər şey inamdan sonra gəlir. Məşqçi və idmançı bir-birlərini başa düşməli, kömək olmalıdırlar. Bəzən yetirmələrimə əsəbləşdiyim hallarda olub. Ancaq bu, sevgidən xəbər verir. Deməli, onları özümə övlad kimi görürəm ki, nöqsanlarına iradımı bildirməli oluram. Sağ olsunlar, idmançılarım da həmişə tövsiyələrimə əməl edirlər.

***- Maraqlıdır ki, sizin məhz taekvondo idman növünü seçməkdə məqsədiniz nə olub (idmançılara müraciətlə)?***

- **Cavad Ağayev:** Əvvəl qaydasız döyüşlə məşğul olmuşam. Lakin sonradan müəllimim fiziki göstəricilərimi nəzərə alaraq dedi ki, taekvondo mənə daha uyğun idman növüdür. Beləliklə, taekvondo ilə məşğul olmağa başladım. Buna görə çox sevinirəm. Bəlkə də, başqa idman növündə peşəkar karyeramı davam etdirsə idim, indi qazandığım nailiyyətləri qazana bilməzdim.

- **Minayə Əkbərova:** Qeyd edim ki, atam Tapdıq Əkbərov da taekvondo məşqçidir. Ailəm, əvvəlcə, qardaşımı bu bölməyə yazdırdı. Lakin qardaşım, məşqlərə həvəssiz getdiyinə görə mən də ona qoşuldum. Əslində belə düşünmüşdük ki, qardaşım zala, müəllimə öyrəşəndən sonra mən məşqlərdən ayrılım. Lakin iş elə gətirdi ki, böyük idmana gələsi oldum."

***- Məmməd müəllim, necə düşünürsünüz, taekvondonu digər idman növlərindən fərqləndirən cəhətlər nədir?***

- **Məmməd Abdullayev:** Təbii ki, fərq ilk növbədə qaydalar və geyimlə bağlıdır. Taekvondo yeganə döyüş idman növüdür ki, fəallıq 95 faiz ayaqlarda olmalıdır, yəni əllərdən çox az istifadə olunur. Nizam-intizam məsələsi də bütün idman növləri kimi, taekvondoda da vacibdir. Mən həmişə tələbələrimə deyirəm ki, dayanq qısqancdır. Əgər sən onu aldatsan, idmançıya zidd hərəkətlər etsən, o da sənin uğur qazanmağına mane olacaq.

## "Çalışıram ki, heç vaxt onları tək qoymayım"

***- Aydındır ki, həmişə qələbə qazanmaq mümkün olmur. İdmançı məğlubiyyətdən sonra nə etməlidir ki, depressiyaya düşməsin?***

- **Məmməd Abdullayev:** Qələbə də, məğlubiyyət də bir az şansla bağlıdır. Yəni uduzduğuna görə idmançını qınamaq olmaz. Əsas odur ki, özündən zəif rəqibə uduzmayasan. Bir də lovğalıq səbəbindən uduzmağı bağışlamıram. Bu, idmançının özü-özünə xəyanət etməsi deməkdir. Yarış ərəfəsində həmişə yetirmələrimə psixoloji dəstək olur, onlara inandığımı xatırladıram.




Gərək idmançı da özü-özünə inansın. Mən həmişə məğlub olan idmançıya qalib gələndən daha çox dəstək oluram. Çünki onun daha çox qayğıya ehtiyacı olur. Ümumiyyətlə nə olur olsun, idmançı həmişə istəyir ki, müəllimi onun yanında olsun. Çalışıram ki, heç vaxt onları tək qoymayım.

- **Cavad Ağayev:** Qəribə görünsə də məğlubiyyətdən sonra ağlayıram (gülür). Sanki bununla rahatlıq tapıram.

- **Minayə Əkbərova:** Uduzandan sonra depressiyaya düşməmək çox vacibdir. Əgər bunu bacarmasaq, məşqçi keyfiyyətsiz olacaq və nəticədə vaxt itirəcəyik. Bu səbəbdən çalışırıq ki, məğlubiyyəti düşünməyək, sadəcə ondan dərs çıxaraq.

***- Məmməd müəllim, idmançılarınızın hansındasa öz döyüş üslubunuzu görürsünüzmü?***

- **Məmməd Abdullayev:** Digər idman növlərinə nisbətən, taekvondo ölkəmizdə hələ gəncdir. Buna baxmayaraq, ilk vaxtlarla bu gün arasında xeyli fərq var, qaydalar çox dəyişib. Ona görə də bizim dövrdəki taekvondo üslubunu indiki gənclərə aşılaya bilmərik. Hətta məsələ o qədər ciddidir ki, bəzən məşqçilər də yeni qaydalara öyrəşməkdə çətinlik çəkirlər. Çalışırıq ki, bütün yetirmələrimizi cəsarətli, əzmkar ruhda tərbiyə edək.

***- Ümumiyyətlə məşqçi-müəllimlik necə peşədir?***

- **Məmməd Abdullayev:** Olduqca çətin, məsuliyyətli və şərəflidir. Hər insan məşqçi-müəllim ola bilməz. Biri var ixtisasını dərindən bilmək, biri də var bildiyini yetirmələrinə çatdırmaq. Məşqçi-müəllim bildiyini yetirmələrinə çatdırmağı bacarmalıdır. Məşqçi həm də səxavətli olmalıdır. İdmançı qalib olanda məşqçi-müəllim az yada düşür, uduzanda isə hamı günahı müəllimdə axtarır.

***- Bəs siz nə vaxtsa məşqçi-müəllim kimi çalışmaq istəyirsiniz (idmançılara müraciətlə)?***

- **Cavad Ağayev:** Bu barədə düşünməmişəm. Bəlkə də, nə vaxtsa oldu.

- **Minayə Əkbərova:** Əlbəttə, əgər bacarsam, çox xoş olar.

***- Bəs idmanla təhsilin vəhdəti barədə nə düşünürsünüz?***

- **Məmməd Abdullayev:** İdmançı mütləq savadlı olmalıdır. Nəzərə almaq lazımdır ki, millət onunla fəxr edir, onu nümunə kimi göstərir. Gərək idmançı da həmişə ona inanaların etimadını doğrultsun. İdmançılar qələbə ruhunda tərbiyə olunmalıdır.

- **Cavad Ağayev:** İdmançıların günlük rejimi çox ağırdır. Ona görə düşünürəm ki, idmanla təhsili paralel inkişaf etdirmək kifayət qədər çətindir.

***- Asudə vaxtınızı necə keçirirsiniz?***

**Cavad Ağayev:** Günün çox hissəsini məşqlərdə oluruq. Asudə vaxtımız demək olar ki, az olur. Həmin vaxtlarda düzgün istirahət etməyə çalışırıq.

**Minayə Əkbərova:** Musiqi dinləməyi çox sevirəm. Asudə vaxtlarımda musiqi dinləyir və bununla da mənəvi istirahət edirəm.

***- Səmimi cavablar üçün çox sağ olun.***

Məmməd Abdullayev: Siz də sağ olun.

*Azər Əlizadə,*
*Kənan Novruzov*

## Şahmatçımız İspaniyada gümüş medala layiq görülüb

İspaniyada şahmat üzrə Pedro Lezcano Montalvo XII beynəlxalq turniri başa çatıb.

Azərbaycan şahmatçısı Azər Mirzəyev turnirdə 7,5 xalla ikinci yeri tutub.

Yarışın qalibi 7,5 xalla Vadim Moiseenko olub. O, əlavə göstəricilərə görə təmsilçimizi üstələyib. Üçüncü pillədə isə Fransa idmançısı Thibault Fantinel qərarlaşıb.

* * *

Budapeştdə keçirilən şahmat üzrə yaz festivalı başa çatıb.

Turnirin qalibi 9 turdan 7 xal yığan rusiyalı Artyom Timofeyev olub. Liderdən bir xal geri qalan şahmatçımız Vüqar Əsədli turnir cədvəlinin 17-ci pilləsində qərarlaşıb. Digər təmsilçilərimiz Nail Bəşirli 5,5, Zaur Bayramov 5 xal toplayıblar.

Yaz festivalında 36 ölkədən 150-yə yaxın şahmatçı mübarizə aparıb.

## Taekvondoçular paytaxt birinciliyində

Gənclər və İdman Nazirliyinin, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin, Azərbaycan Taekvondo Federasiyasının təşkilatçılığı ilə açıq Bakı birinciliyi keçirilib.

Abşeron Olimpiya İdman Kompleksində təşkil edilən yarışda, əvvəlcə, aprel şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Nağı Səfərov şəhidlərimizin Aprel döyüşləri zamanı göstərdikləri qəhrəmanlıqlardan danışıb, Prezident İlham Əliyev tərəfindən idmançılarımıza göstərilən diqqət və qayğıdan, onların beynəlxalq arenalarda qazandıqları uğurlardan bəhs ediblər. Çıxışçılar gələcəkdə bu idmançıların arasından çempionların yetişəcəyinə ümid etdiklərini vurğulayıblar.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra yarışa start verilib. Yarışda 48 taekvondo bölmə və klublarından 550 idmançı iştirak edib.

Üç gün davam edən birincilikdə 2010-2011-ci və 2008-2009-cu il təvəllüdlü uşaqlar, 2005-2007-ci il təvəllüdlü yeniyetmə və 2002-2004-cü il təvəllüdlü gənc taekvondoçular mübarizə aparıblar.

"DAEDO İnternational" taekvondo sistemi ilə keçirilən turnirin təşkil olunmasında əsas məqsəd bu idman növünün təbliği və inkişaf etdirilməsi, eləcə də, idmançıların yarış təcrübəsinin və ustalıqlarının artırılmasından ibarət olub.

Yeniyetmələr arasında milli komandaya seçim xarakteri daşıyan yarışda qaliblərin adlarına aydınlıq gəlib. Turnirdə mükafatçılar sırasında yer alan idmançılar Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin diplom və medalları ilə təltif ediliblər.

## *Budapeşt dünya çempionatına ev sahibliyi edir*

Aprelin 21-də Macarıstanın paytaxtı Budapeşt şəhərində stolüstü tennis üzrə dünya çempionatı start götürüb.

Yarışlarda ölkəmizi qadın və kişilərdən ibarət komandalar təmsil edir. Stolüstü tennisçilərimiz şəxsi yarışlarda medallar uğrunda mübarizə aparırlar.

Dünya çempionatına aprelin 28-də yekun vurulacaq.

# Formula-1

## Azərbaycan Qran-Prisinə hazırlıqlar başa çatır

Formula 1 Azərbaycan Qran-Prisi həftəsonu keçiriləcək və Bakıda bu hadisə ilə bağlı son hazırlıqlar gedir. Maraqlı şəhər trasında yürüşlər artıq dördüncü dəfədir ki, keçirilir. 2016-cı ildə Bakıda keçirilən ilk yürüş Avropa Qran-Prisi adlandırılmışdı.

Paddokdakı bütün işlər, demək olar başa çatıb, şəhərin mərkəzindəki küçələr nəqliyyatın hərəkəti üçün bağlanılıb və trass boyunca bütün çəpərlər quraşdırılıb.

Bu günlərdə işlərin gedişatı barədə bilavasitə trasda yerləşən Bakı "Hilton"unun əməliyyat direktoru Lars Sammelius öz təəssüratlarını bölüşüb. Onun sözlərinə görə, trasın maksimal dərəcədə keyfiyyətli vəziyyətdə olmasından ötrü təşkilatçılar bütün səylərini əsirgəmirlər.

"Əgər trafikdəki vəziyyətdən danışsaq, o zaman burada qarmaqarışıqlıq başlayıb. Bir çox küçələr bağlanılıb, trasın bəzi hissələrinin örtüyü yenilənib. Tribunaların əksəriyyəti artıq quraşdırılıb.

Bizim üçün Qran-Prinin keçiriləcəyi həftə ən mühüm və ən maraqlı olur. Otelimizin birinci mərtəbəsində yerləşdirilən mətbuat mərkəzi artıq hazırdır. Bundan başqa, tanınmış fotoqraf Peter van Eqmondun əl işlərindən ibarət sərgi təşkil etmişik. Foyedə isə iki yürüş simulyatoru quraşdırılıb. İşlərimiz həddindən artıq çoxdur. Cümə axşamı otel artıq tam dolacaq və bizim bir dənə də olsun boş nömrəmiz qalmayacaq", - deyə hollandiyalı menecer bildirib.

Yarış dövründə komandalar, pilotlar, Formula 1 və Beynəlxalq Avtomobil İdmanı Federasiyasının təmsilçiləri məhz bu oteldə qalırlar. Qran-Pri günlərində Bakı "Hilton"unun prezident apartamentlərinin qiyməti bir gecə üçün 3000 avro təşkil edir. Lakin Sammelius həmin nömrələrin məhz kim tərəfindən bronlaşdırıldığını açıqlamayıb.

* * *

Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakı Heydər Əliyev Beynəlxalq Aeroportuna yüklərin gətirilməsinə başlanılıb.

Bildirilib ki, yarış bolidləri, onlara xidmət və yarışların təşkili üçün lazım olan avadanlıq reysləri Şanxay və Bəhreyndən gətirilib. Yüklərin böyük hissəsi Azərbaycanın "Silk Way West Airlines" aviaşirkəti tərəfindən daşınıb. Milli yük aviadaşıyıcısı təkcə Formula 1-in Azərbaycan mərhələsi üçün deyil, həm də müxtəlif qitələrdə digər yarışlar üçün avadanlıqların daşınmasını həyata keçirir.

Qeyd edək ki, bolidlərin təkərləri daimi +20 dərəcə temperaturun saxlanıldığı xüsusi konteynerlərdə daşınır.

Azərbaycan Qran-Prisi 2019-cu il aprelin 26-dan 28-dək keçiriləcək. Yarışlar qədim İçərişəhər, şəhərin müasir hissəsinin siluetləri və Xəzər dənizinin sahili mənzərəsi fonunda təşil olunacaq.

* * *

Malayziya siyasi və iqtisadi səbəblərdən Qran-Pri keçirilməsindən imtina edib və Formula 1-lə kontrakt ildə 67 milyon dollar ödənilməsini nəzərdə tutur. Sepange avtodromunun tikintisinin təşəbbüskarı Mahathir Mohamad yenidən hökumət rəhbəri seçilib və indi yürüşlərin keçirilməsi üçün vəsait tapılacağına ümid yaranıb.

Avtodromun direktoru Razlan Razali deyib: "Bizim yeni Baş nazir vaxtilə avtodromun tikintisinin və Formula 1 yürüşlərinin keçirilməsinin təşəbbüskarı olub. O, yenidən hakimiyyətə qayıdıb. Mahathir Mohamad günlərin birində Formula 1-i Malayziyaya qaytarmaq istəyirdi, lakin 2017-ci ildəki Qran-Pridən sonra biz ən azı 5 il bu yürüşlərin keçirilməyəcəyini gözləyirdik. İndi biz vəziyyəti təhlil edəcəyik. Eşitmişəm ki, yaxın iki-üç ildə Formula 1-də dəyişikliklər olacaq. Biz bu prosesləri izləyirik və istəyirik ki, Qran-Pri üçün dəstək olacaq V8 Supercars seriyasının mərhələsi keçirilsin. Keçən dəfə Formula 1-dən bizə rədd cavabı gəldi, lakin inanıram ki, razılıq əldə edəcəyik və Qran-Pri mərhələsinin yenidən keçirilməsi ehtimalı güclənəcək.



## *III "Raquf Orucov Kuboku" beynəlxalq cüdo turniri başa çatdı*

Əfsanəvi kəşfiyyatçı, şəhid polkovnik-leytenant Raquf Orucovun və digər aprel şəhidlərinin xatirəsinə həsr olunmuş, 21 yaşınadək gənclər arasında III "Raquf Orucov Kuboku" beynəlxalq cüdo turniri keçirilib. Bakı İdman Sarayında təşkil olunan yarışın əsas məqsədi gənclərə vətənpərvərlik hissi və döyüş ruhu aşılamaq, onların Vətənin müdafiəsinə hazırlıq səviyyəsini artırmaq, həmçinin idmançılar arasında dostluq və yoldaşlıq hisslərini möhkəmləndirməkdən ibarət olub.



Gənclər və İdman Nazirliyi, Azərbaycan Cüdo Federasiyasının dəstəyi, "Azman Holdinq"in tərkibinə daxil olan "Judo Club 2012" klubunun təşkilatçılığı ilə keçirilən klublararası turnirdə Azərbaycanla yanaşı, Rusiya, Gürcüstan və Qazaxıstanı təmsil edən 13 klub komandası mübarizə aparıb. Rusiyanı turnirdə Qrozni, Dərbənd və Mahaçqaladan olan komandalar təmsil edib.

Turnirin açılış mərasimində dövlət və hökumət qurumlarının nümayəndələri, millət vəkilləri, veteran hərbçilər, şəhid ailələrinin üzvləri və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

İştirakçı komandaların paradı ilə başlanan mərasimdə, əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən Raquf Orucovun oğlu Aqşin Oruclu yarış iştirakçılarını salamlayaraq turnirin təşkilatçılarına minnətdarlığını bildirib. O, artıq ənənəvi xarakter alan turnirə ictimaiyyət tərəfindən böyük maraq olduğunu qeyd edib: "Üç ildir ki, yarışa dəvət alan xarici idmançılar Şəhidlər xiyabanını ziyarət edir, Azərbaycan qəhrəmanlarını tanıyırlar. Onların sayı hər il artır. Bu əfsanəvi komandir və onun şəhid silahdaşlarını gənclərə tanıtdırmağın ən gözəl yollarından biridir".

Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov çıxışında qeyd edib ki, Aprel döyüşləri Azərbaycan ordusunun döyüş əzminin göstəricisi, xalqımızın birliyinin nümayişi idi. O deyib: "Xalqımızın qəhrəmanlıq salnaməsi olan Aprel döyüşləri hər kəs tərəfindən iftixarla xatırlanır, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad edilir. Bu döyüşlər Azərbaycan xalqının birliyinin, dəyanətinin, əyilməzliyinin və mübarizliyinin sübutudur. Ordumuzun əsgər və zabitləri Aprel döyüşlərində böyük hünər və rəşadət göstərərək öz qəhrəmanlıqları ilə tarix yazdılar. Qəhrəmanlar daim bizim qəlbimizdə yaşayacaqlar. Bu gün gənclər arasında təşkil olunan cüdo turniri də bunun bariz nümunəsidir. Bu yarış gənclərdə hərbi-vətənpərvərlik hissinin və döyüş ruhunun aşılanması baxımından çox vacibdir".

Azərbaycan Cüdo Federasiyasının baş katibi Elmar Babanlı hərbi-vətənpərvərlik hisslərinin, idmanın və sağlam həyat tərzinin gənclər arasında təbliğində belə turnirlərin əhəmiyyətini yüksək qiymətləndirib: "Aprel döyüşləri Azərbaycan xalqının həmrəyliyini göstərdi. Bu döyüşlərdə siyasi mövqeyindən, sosial durumundan, maddi vəziyyətindən, əqidəsindən asılı olmayaraq hər kəs öz vətəndaşlıq mövqeyini nümayiş etdirdi. Raquf Orucov və onun kimi vətən yolunda şəhid olmuş digər qəhrəmanlarımız heç vaxt Azərbaycan xalqının yaddaşından silinməyəcək. İnanıram ki, Azərbaycan cüdosunun inkişafında atılan növbəti addımlardan biri kimi, bu turnir təşkilatı baxımından yüksək səviyyədə keçəcək".

Bədii hissədə vətənpərvərlik mövzusunda maraqlı kompozisiya təqdim olunub, əməkdar artist Fərqanə Qasımova "Azərbaycan" mahnısını ifa edib.

Açılış mərasimində iştirak edən Suraxanı rayonundakı 270 nömrəli orta məktəbin Raquf Orucovun adını daşıyan iki sinfinin hərbi geyimli şagirdlərinin "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı alqışlarla qarşılanıb.



Sonra turnirin final mərhələsinə start verilib.

Əvvəlcə, bürünc mükafatlar uğrunda görüşlər keçirilib. Üçüncü yer uğrunda "Judo Club 2012"nin ikinci komandası, Qroznının "Edelveys", Mahaçqalanın Uşaq-Gənclər Olimpiya Ehtiyatları Məktəbi (UGOEM) və Dərbəndin "Dinamo" komandaları mübarizə aparıb. Bürünc medalları UGOEM və "Dinamo" komandaları qazanıb.

Finalda isə "Judo Club 2012"nin əsas komandası və Gürcüstanın "Şevardeni" klubunun cüdoçuları qalib adı uğrunda yarışıblar. Gərgin mübarizə şəraitində keçən final qarşılaşmasında Gürcüstan komandası III "Raquf Orucov Kuboku" turnirinin qalibi olub. "Judo Club 2012"nin əsas komandası isə ardıcıl üçüncü dəfə ənənəvi turnirin gümüş medalına layiq görülüb.

Qaliblərə mükafatları Azərbaycan Cüdo Federasiyasının İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Cüdo Veteranları Assosiasiyasının prezidenti, "Judo Club 2012" idman klubunun təsisçisi Azər Əsgərov, Federasiyanın baş katibi Elmar Babanlı, "Azman-Holdinq"in icraçı direktoru İlham Əhmədov, "Judo Club 2012" idman klubunun icraçı direktoru, Azərbaycanın Əməkdar məşqçisi Hafis Hacıyev, şəhid Raquf Orucovun oğlu Aqşin Oruclu təqdim ediblər.

Xatırladaq ki, 2017-ci ildə ilk dəfə keçirilən "Raquf Orucov Kuboku" turnirinin finalında da Gürcüstan cüdoçuları həlledici qarşılaşmada "Judo Club 2012" komandasına qalib gələrək yarışın ilk qalibi olmuşdular.

Turnirdə iştirak edən xarici klubların nümayəndələri yarışların yüksək səviyyədə təşkilindən razılıqlarını bildiriblər. Qazaxıstanın "Jas-Batır" klubunun baş məşqçisi Sergey Volobuyev deyib: "Azərbaycanda bir neçə dəfə beynəlxalq yarışlarda olmuşuq. Lakin "Judo Club 2012"nin təşəbbüsü ilə keçirilən bu turnirdə ilk dəfədir ki, iştirak edirik. Mənə Raquf Orucovun qəhrəmanlığı barəsində məlumat verilib. Raquf Orucov Azərbaycan torpağının azadlığı uğrunda qəhrəmancasına öz canından keçib. Yarış təşkilatçılarına minnətdarlığımı bildirirəm ki, belə bir qəhrəmanın xatirəsinə turnir keçirərək onu bizə daha yaxından tanıdırlar. Bu, gənclər üçün xüsusilə böyük önəm daşıyır. Yarışda iştirak edən gənc idmançılar onun haqqında məlumatlı olacaq ki, bu da onlarda əsl qəhrəmanlığın, mübarizliyin və qorxmazlığın necə olması barədə təəssürat yaradacaq".

Turnirdə ədaləti qoruyan qazaxıstanlı hakim Arkat Telmanov isə deyib: "İlk dəfədir ki, bu yarışda iştirak edirəm. Belə bir qəhrəmanın xatirəsinə həsr olunan yarışda hakimlik etmək, ədaləti qorumaq mənim üçün böyük şərəfdir. Turnirin təşkilatçılığı, həqiqətən də, yüksək səviyyədədir. Burada çox mehribanlıqla qarşılandıq. Bizə belə bir diqqət və qayğı göstərdiyinə görə "Judo Club 2012" rəhbərliyinə minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edib klubun zallarını gəzdim, buradakı avadanlıqlarla tanış oldum. Düzünü desəm, burada gördüyüm mənzərə məni valeh etdi. Belə müasir üslubda tikilmiş və yüksək şəraitə malik olan klub nadir hallardadır. İdmançılarınız belə bir zalda məşq etdikləri üçün çox şanslıdırlar".

Turnirdə iştirak edən Rusiya və Gürcüstan klublarının rəhbərləri də yarışların yüksək səviyyədə keçirilməsinə, Bakının qonaqpərvərliyini yaxından görmək üçün komanda üzvlərinə hərtərəfli şərait yaradılmasına görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

*Azər Əlizadə*

# İdman Akademiyasının Dünya və Avropa ali təhsil məkanına inteqrasiyası

***Azərbaycanda təhsilin dünya təhsil sisteminə və ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası prosesi sürətlə inkişaf edir.***

***Azərbaycan təhsili güclü maddi-texniki bazaya, kadr potensialına malikdir. Bu sahələrdə əldə olunmuş nailiyyətlər dünyanın sivil ölkələri ilə müqayisə olunmağa layiqdir. Artıq ölkəmiz Avropa təhsilinə daha sürətlə inteqrasiya olunur. Bu gün Azərbaycan təhsili, mədəniyyəti dünya sivilizasiyasına tam cavab verən səviyyədədir.***

Ümummilli lider Heydər Əliyev deyirdi: “Azərbaycan xalqı irəlidə gedən xalqların arxasınca gedərək bəşəriyyətin əldə etdiyi elmi, texniki nailiyyətlərdən istifadə etməyə çalışıbdır. Bunun üçün də birinci növbədə öz milli təhsilini yaradıb. Bu, XX əsrdə bizim əldə etdiyimiz ən böyük nailiyyətdir. Çünki əgər xalqımız təhsillənməsəydi, savadlanmasaydı, nəhayət, Azərbaycanın özünün milli ali təhsil müəssisələri, institutları, universitetləri yaranmasaydı, indi biz müstəqil olaraq bu cür böyük imkanlara malik ola bilməzdik”.



Ali təhsil tam orta təhsil və orta peşə-ixtisas təhsili bazasından cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssis hazırlığını təmin edir.

Məlumdur ki, ali təhsil müəssisələrində təhsilin keyfiyyəti və rəqabətqabiliyyətli kadr hazırlığı bir sıra amillərdən asılıdır. Həmin amillər içərisində müasir tələblərə cavab verən maddi-texniki baza və infrastruktur, o cümlədən kitabxanalar və laboratoriyalar, cəmiyyətin inkişaf tələblərinə uyğun məzmun, həmin məzmunu özündə əks etdirən dərslik və dərs vəsaitləri, çevik idarəetmə və ən başlıcısı isə yüksək peşəkarlığa malik professor-müəllim heyəti daha əhəmiyyətli yer tutur.

Azərbaycanda ali təhsil ocaqlarının yaradılması asan proses deyildi. Ölkənin maliyyə imkanları xeyli zəifləmişdi, maddi-texniki baza yox idi. Milli kadrların çatışmazlığı tədris prosesinə rusdilli müəllimlərin cəlb olunmasını zəruri edirdi. Bu isə tədrisdə ruslaşdırma siyasətinə gətirib çıxara bilərdi. Lakin bu narahatlıqlar Azərbaycan dövlət xadimlərini niyyətlərindən döndərə bilmədi. Çarizm və Müvəqqəti hökumətin zülmündən ayrılıb istiqlalını elan edən, bolşevik təhlükəsilə üz-üzə dayanan Azərbaycanın dövlət və siyasi xadimləri niyyətlərində israrlı oldular. Çar mütləqiyyətinin hakimiyyəti dövründə Rusiya imperiyasının tərkibində təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda heç bir ali məktəb yox idi. Hələ 1871-ci ildə Rusiya çarı II Aleksandr Tiflisdə olarkən şəhər idarəsi burada bütün xərcləri özləri tərəfindən ödənilməklə universitet açılması xahişi ilə ona müraciət etmiş, lakin bu xahiş yerinə yetirilməmişdi. 1897-ci ilin sentyabr ayında Kiyev və Varşavada politexnikum açıldıqdan sonra, belə bir təhsil müəssisəsinin Zaqafqaziyada da açılması sahəsində danışıqlar başlanmışdı.

Şərq dünyasına respublika məfkurəsini və demokratik idarə üsulunu gətirən Azərbaycan xalqının və dövlətinin həyata keçirdiyi nəhəng tarixi hadisələrdən biri, şübhəsiz, ali təhsil ocaqlarının yaradılması olmuşdur. Onlardan Bakı Dövlət Universiteti1919-cu ildə, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti 1920-ci ildə, Azərbaycan Dövlət Pedaqoji Universiteti 1921-ci ildə, Bakı Musiqi Akademiyası 1920-ci ildə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti 1923-cü ildə, Azərbaycan Dövlət Aqrar Universiteti 1929-cu ildə, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası 1930-cu ildə və başqaları yaradılmışdır.

Öz ənənələri və uğurları ilə şöhrət qazanaraq yarandığı vaxtdan xalqımızın xidmətində sədaqətlə dayanan, bədən tərbiyəsi və idman üzrə mütəxəssislər hazırlamaqda yeganə ali məktəb olan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) 89 illik tarixi var. Əsası 1930-cu il noyabrın 8-də qoyulmuş və Cənubi Qafqazda ilk ali məktəb olan Zaqafqaziya Dövlət Cismani Mədəniyyət İnstitutunun açılışı M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının indiki binasında təntənəli şəkildə həyata keçirilib. Onun nizamnaməsi təsdiq edilib. Nizamnaməyə görə institutun başlıca vəzifəsi bədən tərbiyəsi müəllimləri, məşqçilər, kütləvi bədən tərbiyəsi və idman işləri üzrə təşkilatçılar, müalicə bədən tərbiyəsi metodistləri hazırlamaq idi. İlk illər institutda fakültələri şöbələr əvəz edirdi. Şöbələrə ümumi rəhbərlik isə tədris hissəsi tərəfindən aparıldı və bu üç il davam edib.

## ADBTİA bir neçə xarici universitetlə əməkdaşlıq edir

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1999-cu il 23 mart 42 saylı qərarına əsasən Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına çevrilmişdir. Akademiyada fəaliyyət göstərən kafedralar 4 qrupa bölünmüşdür: nəzəri-pedaqoji fənlər kafedraları, idman-pedaqoji fənlər kafedraları, tibbi-bioloji fənlər kafedraları, ictimai fənlər kafedraları (1999).

Akademiyada baş verən dəyişikliklərdən ən əsası tərəfdaşlarla əlaqələrin gücləndirilməsi və müvafiq beynəlxalq qurumlara üzv olmaqdır. Qeyd etmək lazımdır ki, tələbə və müəllim mübadiləsi üçün bu, çox vacibdir. Akademiya bir neçə xarici universitetlə əməkdaşlıq edir (2008). Onların arasında Türkiyənin Mərmərə Universiteti, Moskva Bədən Tərbiyəsi və İdman Akademiyası, Kiyev Pedaqoji Universiteti, Təbriz Universiteti və s vardır. 2008-ci il sentyabr 17-20-dək Tehran Universitetinin idman elmləri fakültəsinin nümayəndə heyəti universitetin professoru doktor Vahid Sarı, elmi katib doktor Cəfər Sadiq, biomexanika fənni üzrə mühazirəçi, xanım Şirin Yazdani və əlaçı tələbə Zəhra Rüstəmi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının fəaliyyəti ilə tanış olmuşlar. Görüş qarşılıqlı marağa səbəb olmuş, gələcəkdə bədən tərbiyəsi və idman təhsili ilə bağlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi məsələsi dəstəklənmiş, geniş fikir mübadiləri aparılmışdır. Həmçinin əməkdaşlar Akademiyada fəaliyyət göstərən muzey və idman zallarında olmuş, nəzəri və praktik dərslərdə iştirak etmişlər.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi Şurasının qərarına əsasən görkəmli şəxslər akademiyanın fəxri doktoru adına layiq görülmüşlər (1994-2015). 1994-cü ildə Türkiyə Cümhuriyyəti Mərmərə Universitetinin doktoru, professor Ahmət Həmdi Turqut, 1994-cü ildə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) sabiq prezidenti Xuan Antonio Samaranç, 1995-ci ildə Beynəlxalq Boks Federasiyasının prezidenti Ənvər Çoudri, 1995-ci ildə EABA-nın prezidenti Emil Jeçev, 2000-ci ildə Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roq, 2005-ci ildə beynəlxalq Taekvondo Federasiyasının prezidenti Çunq Von Ço Layiq, 2007-ci ildə FİFA-nın prezidenti Yozef Blatter, 2007-ci ildə AOK prezidenti Patrik Hikkey, 2007-ci ildə AİBA-nın I vitse-prezidenti Qafur Rəhimov, 2015-ci ildə isə Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax və digərləri bu fəxri adı almışlar.




Respublikamızın və xarici ali məktəblərin birgə proqramlarının yaradılma siyasətinin və asılılığının təhlili, həm Avropa birgə proqramlarının, həm də Azərbaycan təhsil sisteminin inkişafının Avropa təhsil sistemindən təcrid vəziyyətinin dəf edilməsilə bağlı məqsəd və maraqların mövcudluğunu göstərir. Avropa universitetləri üçün Azərbaycan ali məktəbləri ilə birgə proqramlar yaradılmasında başlıca prioritetlərdən biri yeni təhsil bazarına çıxışdan, tələbələrin cəlb edilməsinin genişləndirilməsindən, onların diplomlarının əmək bazarında mövqelərinin və tanınma dərəcəsinin gücləndirilməsindən ibarətdir. Eyni zamanda Azərbaycanın müəllim və tədqiqatçıları üçün daha əlverişli şərait yaradılmasından və ali məktəblərin beynəlxalq rəqabətqabiliyyətliliyinin möhkəmləndirilməsindən ibarətdir.

ADBTİA-nın əməkdaşlarından 30 nəfər müəllim ixtisasartırma kurslarında iştirak ediblər (2016). 2016-cı ildə ixtisasartırma işinə xüsusi diqqət yetirilmişdir. Sosial elmlər kafedrasının 15 nəfər xarici dil tədris edən müəllimi “Tədris etmə biliklərinin qiymətləndirilməsi və artırılması” kursları bitirərək testlərdən keçmişlər və onlardan 12 nəfəri artıq Kembric Universitetinin xarici dil müəllimliyi üzrə sertifikat almışdılar.

Aparılmış tədqiqatdan belə nəticəyə gəlmək olar ki, Akademiyanın kadrları illər üzrə 83 pedaqogika üzrə fəlsəfə doktoru namizədlik dissertasiyası müdafiə etmişlər. Onlardan: 69-u pedaqoji elmlər namizədi, 13-ü bioloji elmlər namizədi, 1-i isə texnika üzrə elmlər doktoru dissertasiyası müdafiə etmişlər. Onlardan, 60-ı azərbaycanlı, 10-u rus, 1-i gürcü, 1-i isə başqa millətin nümayəndəsidir (1948-2017-ci illərdə).



Beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2016-cı ilin mart-avqust aylarında Akademiyanın Strateji Planlaşdırma üzrə İşçi Qrupunun üzvləri Belarus Dövlət Bədən Tərbiyəsi Universiteti, Acıbadəm Universiteti, Hacəttəpə Universiteti (42,438 tələbə), Mərmərə Universiteti (51 000 tələbə), İstanbul Universiteti (178,901 tələbə), Ankara Universiteti (66,555 tələbə), Sofiyada “Vassil Levski” Milli İdman Akademiyası, Köln Alman İdman Universiteti (6 000 tələbə), Şeffield Hallam Universiteti (31,500 tələbə) və Lubliana Universitetinə (42,922 tələbə) səfər etmişlər. Səfər zamanı idman tibbi, idman menecmenti və idman jurnalistikası da daxil olmaqla bədən tərbiyəsi və idman sahəsində mütəxəssislərin hazırlanması üzrə təhsil modelini öyrənmək üçün müxtəlif görüşlər keçirilmişdir. Tədris və elmi-tədqiqat laboratoriyaların işinin təşkil edilməsinə və onların müasir təhsil prosesində rolunun öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

Təhsildə keyfiyyətin artırılması, yeni proqramların yaradılması və tələbə yönümlü təhsil sisteminə keçid edilməsi üçün kineziologiya, kinezioterapiya, idman farmakologiyası, dietologiya, idman psixologiyası, fiziki reabilitasiya, idman menecmenti, idman jurnalistikası və s. kimi yeni fənlərin tədris proqramına daxil edilməsi zəruridir. Bununla yanaşı müvafiq sahələr üzrə müəllimlərin çatışmazlığı problemi xüsusi aktuallıq kəsb edir. Bu məsələ islahatların ayrıca bir hissəsini təşkil edir və bununla bağlı olaraq Strateji Planlaşdırma üzrə İşçi Qrupu yüksək ixtisaslı xarici mütəxəssislərin həm tələbələrin tədrisi, həm də yerli kadrların intensiv hazırlığı prosesinə cəlb edilməsi üçün aparıcı xarici universitetlərlə danışıqlar aparır.

## Yüksək ixtisaslı kadrların hazırlığı üçün müasir ali təhsil ocağı

2017-ci ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) üç yeni magistr ixtisasları - İdman Tibbi və Reabilitasiya, İdman Menecmenti və İdman Jurnalistikası yaradılmışdır. ADBTİA-nın tədrisi ingilis dilində olan bu ixtisaslarına qəbul olmaq istəyən bakalavrlar Dövlət İmtahan Mərkəzinin magistr imtahanın yalnız birinci mərhələsini keçmiş və Mərkəz tərəfindən birinci mərhələ üçün müəyyən edilmiş müsabiqə şərtlərini ödəmişdirlər. Bakalavrlar qəbul imtahanının ikinci mərhələsi əvəzinə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəyyən etdiyi qəbul prosedurlarından keçmişdilər. Bununla yanaşı, bu ixtisasları seçən bakalavrlar TOEFL IBT (minimum 83 bal) və ya IELTS (minimum 6.5 bal) test nəticələrini təqdim etmişdilər. Bu gün Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası idman təhsili sahəsində yüksək ixtisaslı mütəxəssisləri hazırlamaq üçün müasir ali təhsil ocağıdır.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının “İdman menecmenti” və “İdman jurnalistikası” ixtisasları üzrə magistr tələbələrin Birləşmiş Krallığın təhsil-təcrübəsi ilə yaxından əməkdaşlıq edirlər. Əməkdaşlıq nəticəsində tələbələr, İngiltərənin London, Şeffild, Lids, Mançester, Lafboro, Rugby, York şəhərlərində yerləşən müxtəlif idman ali təhsil müəssisələrində və idman obyektlərində olmuş, habelə həkim-magistrantlar üçün UCL hospitalları, UCL İdman Tibbi İnstitutu, İngilis İdman İnstitutu, “Çelsi” Futbol Klubunun Tibbi klinikası, özəl reabilitasiya klinikalarında təhsil-təcrübə seminarları keçirilmişdir. Bundan əlavə, magistrlar ELEVATE “The Arena of Physical Activity”, “Health and Performance” Beynəlxalq İdman tibbi və reabilitasiya konfransında fəal iştirak etmişdilər. 14 günlük proqram ərzində tələbələrə 2 universitetdə 4 modul üzrə mühazirələr keçirilmiş, 9 idman məkanına səfər olunmuş, 3 şəhərə mədəni səfər təşkil olunmuşdur.

Bolqarıstanın “Vassil Levski” Milli İdman Akademiyası, Belarus Dövlət Bədən Tərbiyəsi Universiteti, eyni zamanda Belarusiyanın Milli Elmlər Akademiyasının Fiziologiya və Genetika İnstitutları, Gürcüstanın Dövlət Bədən Tərbiyəsi və İdman Pedaqoji Universiteti, Türkiyənin Afron Kocatepe Universiteti, Kastamonu Universiteti və Macarıstanın Fiziki Tərbiyə Universiteti ilə memorandumlar imzalanmışdır. İmzalanmış memorandumlar çərçivəsində akademik və tələbə heyətin mübadiləsi, birgə elmi tədqiqatların aparılması və təlim, seminar, konfransların keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Amerika Birləşmiş Ştatları, İsrail və Yaponiya səfirlikləri ilə də yaxından əməkdaşlıq edir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası fəaliyyətə başladığı vaxtdan etibarən ölkəmizin idman həyatına layiqli töhfələr vermişdir. Akademiyanın yetirmələri Yay Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında böyük nailiyyətlər qazanaraq ölkəmizi layiqincə təmsil etmişlər.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında informasiya-kommunikasiya texnologiyaları mərkəzi, tədris, elmi-tədqiqat, təcrübə-sınaq laboratoriyaları, resurs, treninq mərkəzləri yaradılmış və onların müvafiq tədris-metodiki və elmi avadanlıqlarla təchizatı təmin olunmuş, elektron kitabxana və müasir mətbəə kompleksləri yaradılmışdır.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Avropa ali təhsil məkanına inteqrasiyası məsələsində bir çox əhəmiyyət kəsb edən problem, perspektivlik və meyillər davam etməkdədir.

***Dilqəm Quliyev,***
***pedaqogika üzrə elmlər doktoru, professor***

# Velosipedçilər açıq birincilikdə yarışıblar

Azərbaycan Velosiped İdmanı Federasiyasının təşkilatçılığı ilə Respublika Olimpiya Velosiped Məktəbinin trek velosipedi üzrə açıq birinciliyi keçirilib. Respublika Velotrekində təşkil edilən yarışda klub və cəmiyyətlərin 6 yaş qrupunda 65 idmançısı mübarizə aparıb.

2005-2006-cı il təvəllüdlü qızların 330 metr məsafəyə mübarizəsində Respublika Olimpiya Velosiped Məktəbinin üzvü Radxa Şabanova 1-ci yeri tutub. Onun komanda yoldaşı Fatimə Əfqanzadə 2-ci, 7 saylı Olimpiya Məktəbinin təmsilçisi Mədinə Atabalayeva isə 3-cü olub. Bu yaş kateqoriyasında çıxış edən oğlanlar da 330 metr məsafəyə yarışıblar və fəxri kürsüyə Respublika Olimpiya Velosiped Məktəbinin yetirmələri qalxıblar - Mirsaleh İbadov 1-ci, Əlihüseyn Musazadə 2-ci, Hüseyn Nərimanov 3-cü yeri tutub.

2003-2004-cü il təvəllüdlü oğlan velosipedçilərin 500 metr məsafəyə mübarizəsində ilk üçlüyə Mehran Əhmədzadə, Rəşid Ələkbərov və Natiq Meydərov düşüblər. Adları çəkilən idmançıların hər üçü Respublika Olimpiya Velosiped Məktəbini təmsil edir.



2001-2003-cü il təvəllüdlü qızlar da 500 metr məsafəyə yürüşdə bacarıqlarını nümayiş etdiriblər və burada da təşkilatçı cəmiyyətin üzvləri mükafatalayiq yerlər tutublar - Zəhra Əfqanzadə qızıl, Natəvan Vəliyeva gümüş, Aygün Mahmudlu isə bürünc medal qazanıb.

Gənc oğlanların (2000-2002) 1 km məsafəyə mübarizəsində Dövlət Təhlükəsizliyi Xidməti Velosiped klubunun üzvü Əli Qurbanov ən yüksək nəticə göstərib. 2-ci yerə Respublika Olimpiya Velosiped Məktəbinin nümayəndəsi Yelmar Şahmarzadə, 3-cü yerə isə 7 saylı Olimpiya Məktəbinin velosipedçisi Əmral Əbdüləzizili layiq görülüb.

Nəhayət, U23 yaş kateqoriyasında Respublika Olimpiya Velosiped Məktəbindən Ənvər Xamiyev 1-ci, Ayxan Mahmudov isə 2-ci olub. Fərqlənən idmançılar medal, diplom və hədiyyələrlə təltif ediliblər.

# Ağırlıqqaldırma üzrə mərhələ yarışlarına start verilib

Aprelin 20-də Azərbaycanın bütün bölgələrini əhatə edən ağırlıqqaldırma üzrə respublika yarışlarının ikinci seçmə mərhələsi start götürüb.

Yarışlar Xırdalan, Lənkəran və Samuxda keçirilir. Aprelin 20-21-də Xırdalanda keçirilən yarışda Sumqayıt, Qobustan, Şamaxı, İsmayıllı və Bakıdan olan atletlər mübarizə aparıblar.

Aprelin 24-25-də Lənkəranda Cəlilabad, Neftçala, Lerik və Astaranı, ayın 27-28-də isə Samuxda Goranboy, Gəncə, Qazax, Yevlax, Şəki və Qaxı təmsil edən atletlər körpücük üzərinə çıxacaqlar.




Yarış şəxsi xarakter daşıyır və iştiraka yalnız texniki cəhətdən hazırlıqlı, yaşı ən azı 12 olan idmançılar buraxılacaq. Mərhələ yarışlarında 2001-2007-ci illər və daha böyük təvəllüdlü kişilər və qadınlar, müvafiq yaş qruplarında mübarizə aparırlar. Qaliblər "Sinkleyr" cədvəli üzrə müəyyən ediləcək.

Yarışın məqsədi regionlarda atletlərin hazırlıq durumlarının yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsi, ağırlıqqaldırma idman növünün şəhər, rayon, qəsəbə və kəndlərdə təbliği və inkişafı, idmançılar və məşqçilər arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsidir.

## Bölgə idmanı

### Ulu Öndərin xatirəsinə həsr olunan futzal turniri başlayıb

Şəki Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə futzal üzrə "Şəki kuboku-2019" turnirinə start verilib.

YAP Şəki təşkilatı, şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatları təmsil edən 26 komanda mübarizə aparır.



Turnirin açılış mərasimində YAP Şəki təşkilatının sədri Həsən Həsənov və Gənclər və İdman İdarəsinin rəisi Vüqar İskəndərov çıxış edərək, ulu öndər Heydər Əliyevin idmanın inkişafına hər zaman böyük önəm verdiyini vurğulayıb, onun əziz xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını bildiriblər.

Futzal turniri mayın 10-dək davam edəcək.

* * *

AFFA-nın və Cəbrayıl Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində "Açıq əyləncəli futbol məktəbləri" layihəsi çərçivəsində növbəti tədbir keçirilib.

Tədbirdə AFFA-nın birinci vitse-prezidenti, Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, deputat İlham Əliyev, Cəbrayıl rayon gənclər və idman idarəsinin rəisi Emin Məstəliyev iştirak ediblər.

Çıxış edənlər layihənin əhəmiyyətindən danışıblar.

Layihə çərçivəsində uşaqlara müxtəlif idman ləvazimatları paylanılıb. Tədbirin sonunda uşaqlar əyləncəli futbol nümayiş etdiriblər.

Xatırladaq ki, 7-12 yaşlı oğlan və qızların iştirakını nəzərdə tutan bu layihənin əsas məqsədi uşaq futbolunun inkişafına kömək göstərmək, uşaqların asudə vaxtının səmərəli təşkili, onlarda futbola və digər idman növlərinə maraq yaratmaq, sağlam həyat tərzinin təbliğ etməkdir.

* * *

Tovuz rayon gənclər və idman idarəsinin və Azərbaycan Alpaqut Federasiyasının Gəncəbasar regional nümayəndəliyinin təşkilatçılığı ilə Tovuz Olimpiya İdman Kompleksində alpaqut Turan döyüş sənəti üzrə Gəncəbasar regional açıq birinciliyi keçirilib.

Alpaqut Turan döyüş sənətinin batur, caymaz və qurşaq sistemləri üzrə təşkil edilən birincilikdə federasiyanın Tovuz, Qazax, Ağstafa, Laçın və Şəmkir filiallarını təmsil edən yeddi komandanın heyətində 109 idmançı qüvvəsini sınayıb.

Yekun nəticələrə görə batur sistemi üzrə Şəmkir, caymaz üzrə Tovuz, qurşaq sistemi üzrə isə Qazax idmançıları birinci yerə layiq görülüblər.

Sonda Tovuz rayon gənclər və idman idarəsi tərəfindən qaliblərə medal, diplom, komandalara isə kuboklar təqdim edilib.

## Redaksiyanın poçtundan




### Sərrastlar hədəfi Qəbələdə nişan alıblar

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Qəbələ Stend Atıcılığı Kompleksində Yeniyetmələrin XII Respublika Oyunlarının proqramına daxil olan güllə atıcılığı üzrə yeniyetmələr arasında zona yarışları keçirilib.

Yarışın keçirilməsində məqsəd respublikada güllə atıcılığı idman növünün inkişaf etdirilməsi, yeniyetmələrə sağlam həyat tərzinin aşılanması, respublikanın bölgələrində bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi və təbliğ olunması, həmçinin yeniyetmələrin idman ustalıqlarının artırılması, yığma komandalara namizədlərin hazırlanmasından ibarətdir.

Zona birinciliyinin açılış mərasimində Gənclər və İdman Nazirliyinin əməkdaşı Ülviyyə Hacıyeva və Qəbələ rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək Respublikada idmana və idmançılara göstərilən dövlət qayğısından, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasından danışaraq komandalara uğurlar arzulayıblar.

Komanda və şəxsi xarakter daşıyan zona yarışında I və II yeri tutmuş komandalar final mərhələsinə vəsiqə qazanıblar. Yarışda respublikanın 10 şəhər və rayonundan 50-dək idmançı mübarizə aparıb. Yarışın yekun nəticəsinə əsasən Oğuz rayon komandası I, Qax rayon komandası isə II yeri tutaraq Sumqayıt şəhərində keçiriləcək final mərhələsinə lisenziya qazanıblar.

*Elçin Osmanov,*
*Qəbələ RGİİ-nin*
*aparıcı məsləhətçisi*

### Astarada yunan-Roma güləşi üzrə zona birinciliyi təşkil edilib

Astara Olimpiya İdman Kompleksində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Güləş Federasiyasının birgə təsdiq etdikləri təqvim planına əsasən Yeniyetmələrin XII Respublika Oyunları proqramına daxil olan yunan-Roma güləşi üzrə 2004-2005-ci il təvəllüdlü idmançılar arasında zona birinciliyi keçirilib.

Tədbirin məqsədi Yeniyetmələrin XII Respublika Oyunlarının final mərhələsinə hazırlıq, perspektivli idmançıların seçilməsi, yeniyetmələrə sağlam həyat tərzinin aşılanması, yunan-Roma idman növünün təbliği və inkişaf etdirilməsidir.



Tədbirin açılış mərasimindən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və tədbir açıq elan edilib.

Sonra yarışın baş hakimi, yunan-Roma güləşi üzrə beynəlxalq dərəcəli hakim Qərib Əliyev yarışların reqlamenti barədə tədbir iştirakçılarına məlumat verib.

Respublika zona birinciliyində 11 çəki dərəcəsində respublikanın Cəlilabad (2 komanda), Lənkəran (2 komanda), Masallı(2 komanda), Sumqayıt, Astara, Neftçala, Lerik, Qubadlı, Sabirabad, Zəngilan rayon və şəhərlərini təmsil edən 12 komandadan 130 nəfər idmançı gücünü sınayıb.

Yekunda hər çəki dərəcəsində I, II və III yerləri qazanan idmançılar respublika final mərhələsində iştirak etmək hüququ qazanıblar.

*İqrar Cəfərov,*
*Astara RGİİ-nin rəis müavini*

### Şotokan karate-do üzrə Bakı şəhər çempionatı

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ) təşkilatçılığı ilə şotokan karate-do üzrə Bakı şəhər çempionatı keçirilib.

Yarışda 112 idmançı mübarizə aparıb. Turnirin nəticələrinə görə, 10-11 yaş qrupu üzrə İsmayıl Xamoyev, Əladdin Məlikov, Ayxan Ağamirzəli, Aqşin Qarayev birinci yerə layiq görülüb. 12-13 yaş üzrə Amin Yadigarlı, Məhəmməd Xamoyev, Əli Hacıyev, Ceyhun Babacanov, 14-15 yaşda Vahid Hüseynov, Səid Kərimov, Azər Tapdıqlı, Hüseyn Əliyev, Səməd Abbaslı birinci yeri tutub. 16-17 yaş üzrə isə Rəvan İsmayılzadə, Hüseyn Məmmədli, Abbas Dadaşov, Hüseyn Hüseynzadə, Fərid Şahbazlı fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yarışda ilk üç yeri tutan idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplomlar və xatirə hədiyyələri ilə təltif olunublar.

### Komandamız Moskvaya yollanıb

Aprelin 24-dən mayın 1-dək Moskvada uşu üzrə Avropa çempionatı keçiriləcək. Çempionatda komandamız yeniyetmə, gənc və kişilər kateqoriyalarında çinda və vinçun versiyaları üzrə mübarizə aparacaq.

Komandamız turnirdə gənclərdən ibarət 16 nəfərlə təmsil olunacaq. Kişilərin yarışında üçqat Avropa çempionu, İslam Həmrəyliyi Oyunlarının gümüş və bürünc mükafatçısı Elçin Eminov (60 kq), dünya çempionatının bürünc medalçısı, İslamiadanın gümüş və bürünc mükafatlarının sahibi Ruslan Piriyev (65 kq) mübarizə aparacaqlar. Vinçun yarışlarında isə Avropa çempionu Rasim Kərimov iştirak edəcək.

Yarışlarda yığma komandamızın heyəti uşu üzrə ənənəvi Azərbaycan çempionatında 1-2-ci yerləri tutmuş idmançılardan formalaşdırılıb.

Komandamız çempionatda federasiyanın prezidenti Azər Həsənsoyun rəhbərliyi ilə mübarizə aparacaq.

# Naxçıvanda beynəlxalq turnir

Mayın 4-5-də Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Heydər Əliyev Kuboku uğrunda "Nakhchivan Open" beynəlxalq karate-do turniri keçiriləcək.

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman nazirlikləri, Azərbaycan Milli Karate Federasiyası və Naxçıvan Karate-do Federasiyasının təşkilatçılığı ilə keçiriləcək turnirdə uşaqlar, yeniyetmələr, gənclər kateqoriyalarında yarışlar təşkil olunacaq.

İlham Əliyev adına Naxçıvan Olimpiya İdman Kompleksində keçiriləcək beynəlxalq yarışda 10-dək ölkənin təmsil olunması gözlənilir.

* * *

Naxçıvan şəhərindəki İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında yeniyetmə və gənclər (2002-2004-cü illər) arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.



Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə 10 çəki dərəcəsi üzrə 40-dan çox idmançı öz qüvvəsini sınayıb.

Yarışda fərqlənən idmançılar təşkilatçılar tərəfindən diplomlarla təltif olunublar.

# FUTBOL

## Çempionluq uğrunda mübarizə gərginləşir



Futbol üzrə Topaz Premyer Liqasında XXV turun oyunları keçirilib. Turun birinci oyunu "Kapital Bank Arena" stadionunda təşkil olunub. "Sumqayıt" öz meydanında "Səbail" komandasını qəbul edib. Görüş qonaqların 1:2 hesablı qələbəsi ilə başa çatıb. Bu qələbədən sonra xallarının sayını 41-ə çatdıran "Səbail" turnir cədvəlində üçüncü yerdə qərarlaşıb, "Sumqayıt" isə 20 xalla 7-ci yerdədir. Günün ikinci qarşılaşması "Qarabağ" və "Keşlə" klubları arasında oynanılıb. Turnir cədvəlində ilk pillədə qərarlaşan "Qarabağ"autsayder "Keşlə"ni böyük hesabla məğlub edib. Qarşılaşma Ağdam təmsilçisinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. Bu nəticədən sonra xallarının sayını 57-yə çatdıran "Qarabağ" 1-ci pillədəki mövqeyini qoruyub. "Keşlə" isə 20 xalla sonuncu - 8-ci yerdə qalıb. Turun ikinci oyun günündə "Qəbələ" doğma meydanda "Zirə" komandasını məğlub edib - 2:1. Bu nəticədən sonra 36 xalla dördüncü pillədə qərarlaşan "Qəbələ" komandası "Səbail" ilə xal fərqinin artmasına imkan verməyib. "Zirə" isə 25 xalla altıncı pillədə qərarlaşıb. Topaz Premyer Liqasında XXV tura "Sabah" və "Neftçi" komandalarının oyunu ilə yekun vurulub. Masazırdakı "Əlincə Arena"da baş tutan matç qonaqların qələbəsi ilə başa çatıb - 2:0. Matçın 55-ci dəqiqəsində "Sabah"ın sağ cinah müdafiəçisi Novruz Məmmədov ikinci dəfə sarı vərəqə görərək meydandan qovulub, sonra "Neftçi"nin heyətində Namik Ələsgərov dubl edib. O, 59-cu və 62-ci dəqiqələrdə fərqlənib. Bu qələbədən sonra xalını 55-ə çatdıran "Neftçi" ən yaxın izləyicisi olduğu lider "Qarabağ"la aradakı xal fərqini 2-yə endirib. "Sabah" isə 26 xalla 5-ci pillədə qalıb.

## "Qarabağ"ın Qəbələ, "Zirə"nin Sumqayıt sınağı




Sabah Azərbaycan kubokunda 1/2 final mərhələsinin ilk oyunlarına start veriləcək. "Qarabağ" Qəbələ şəhər stadionunda yerli komandanın qonağı olacaq. "Zirə" isə finala vəsiqə əldə etmək üçün ilk görüşdə "Kapital Bank Arena"da Sumqayıtla üz-üzə gələcək. Artıq görüşləri idarə edəcək hakimləri də adları müəyyənləşib.

23 aprel (çərşənbə axşamı)

**16:00. "Qəbələ" - "Qarabağ"**
**Hakimlər:** Vüqar Həsənli, Mübariz Haşımov, Cəmil Quliyev, Kamal Umudlu
**Hakim-inspektor:** Anar Salmanov
***Qəbələ şəhər stadionu***

**18:30. "Sumqayıt" - "Zirə"**
**Hakimlər:** Səbuhi Bayramov, Knyaz Əmiraslanov, Nahid Əliyev, Rövşən Rəcəbov
***"Kapital Bank Arena"***

## "KİA Kubok Turu": Moskvadan sonra Milan

Moskvadakı "Aviapark" ticarət-əyləncə mərkəzində UEFA Avropa Liqasının "KİA Kubok Turu" keçirilir. Tədbirin ilk günündə rusiyalı tanınmış futbolçu Andrey Arşavin, sonrakı gün isə turnirin bu il mayın 29-da Bakıda keçiriləcək final qarşılaşmasının səfirləri - futbol veteranı Vəli Qasımov və hazırda Samara şəhərinin "Krılya Sovetov" klubunda çıxış edən, Rusiya millisinin sabiq üzvü Aleksandr Səmədov iştirak edib. Sərgidə iştirak edən azərbaycanlı tələbələrlə görüşən futbolçular onların suallarını cavablandırıb, futbolla bağlı maraqlı fikir mübadiləsi aparıblar. Sonra görüş futbol azarkeşləri ilə daha geniş formatda davam etdirilib.

Vəli Qasımov və Aleksandr Səmədov çıxış edərək Bakıda keçiriləcək final oyununun nəinki Azərbaycanda, ümumilikdə regionda futbolun inkişafına təkan verəcəyini və futbola marağın artmasına müsbət təsir göstərəcəyini bildiriblər.

UEFA Avropa Liqası Final 2019-un səfirlərinin avtoqraf mərasimi və azarkeşlərlə xatirə şəkilləri çəkdirməsindən sonra viktorina keçirilib. Qalib Bakıda keçiriləcək final oyununa bilet qazanıb.

UEFA Avropa Liqasının kuboku Rusiyaya İtaliyanın Milan şəhərindən gətirilib. Martın 9-dan İsveçrənin Cenevrə şəhərindən başlayan kubok səyahəti martın 22-23-də İspaniyanın Sevilya, martın 29-30-da Almaniyanın Berlin, aprelin 5-də və 6-da İngiltərənin paytaxtı London, aprelin 12-də isə İtaliyanın Milan şəhərində davam edib. Mayın 10-da Fransa paytaxtı Parisdə olacaq UEFA Avropa Liqası kuboku mayın 16-dan etibarən yenidən Bakıya gətiriləcək və final gününə qədər ölkəmizdə olacaq. UEFA Uşaq Fondu ilə birgə keçirilən kubok turu, eyni zamanda, xeyriyyə məqsədi daşıyır. Kubokun nümayiş olunduğu şəhərlərdə toplanan futbol ayaqqabıları İordaniyada məskunlaşmış yeniyetmə və gənc Suriya qaçqınlarına veriləcək.




## "Niyə də "Barselona"ya qalib gəlməyək?"

"Ayaks"ın yarımmüdafiəçisi Frenk de Yonq bildirib ki, Çempionlar Liqasının finalında "Barselona" ilə qarşılaşmaq maraqlı olardı: "Çox istəyirəm ki, "Barselona" ilə finalda görüşək. Hələ ki, mən "Ayaks"ın heyətində çıxış edirəm. "Real", "Yuventus" kimi güclü rəqibləri məğlub edə biliriksə, niyə də "Barselona"ya qalib gəlməyək? Gələcək komandama qarşı oynamaq böyük məsuliyyət tələb edir. Lakin biz Çempionlar Liqasının qalibi olmaq istəyirik.

## "Real" həmişə ən yaxşı futbolçuları komandaya dəvət edir"

İspaniyanın "Marca" nəşri Madrid "Real"ının baş məşqçisi Zinəddin Zidanın yay transfer pəncərəsindəki planları haqqında fikirlərini nəşr edib.

"Mənə nəyin lazım olduğunu əla bilirəm. Klub rəhbərliyi ilə transferlər haqqında danışacağam. Amma kimləri transfer etmək istədiyimizi açıqlamayacam". O, bildirib ki, Madrid təmsilçisinin prezidenti Florentino Peres kluba qayıdan zaman onun qarşısına hər hansı şərt qoymayıb: "Biz nə etmək lazım olduğunu, həmçinin oyunçular haqda danışmışıq. Baxaq, hansı transferlər alınacaq. Amma dəyişiklik olacaq". Zidan yeni futbolçular almaq üçün bəzi oyunçuları satacaqları iddialarına da münasibət bildirib: "Bu haqda danışmaq üçün bizə vaxt lazım olacaq. Bu, istənilən oyunçu ola bilər. "Real" həmişə ən yaxşı futbolçuları komandaya dəvət edir. Bu il, klub üçün yaxşı mövsüm deyil. Vəziyyəti dəyişmək lazımdır". "Real"ın baş məşqçisi futbolçusu Qaret Beylin klubdakı gələcəyini hələlik müzakirə etmədiklərini də vurğulayıb. Qeyd edək ki, "Real"ın Eden Hazard ("Çelsi"), Pol Poqba ("Mançester Yunayted", Luka Yoviç ("Benfika") və Matteys de Liqti ("Ayaks") transfer etmək istədiyi iddia olunur.



* * *

"Ayntraxt"ın hücumçusu Luka Yoviçin Madrid "Real"ına keçidi rəsmiləşmək üzrədir. Artıq tərəflər arasında ilkin razılıq əldə olunub. Transfer üçün "Real Madrid" rəhbərliyi 70 milyon avro dəyərində müqavilə imzalamağa hazırdır.

## "Hər şey ondan asılı deyil"

İtaliyanın "Napoli" klubunun prezidenti Aurelio De Laurentis "Yuventus"un 1/4 finalda çıxışı barədə maraqlı açıqlamalar verib. "Ronaldo "Yuventus"un Çempionlar Liqasında mərhələ keçməsinə kömək edə bilmədi. Ona görə ki, hər şey ondan asılı deyil. Bu mübarizəni komanda qazanmalı idi. Hesab edirəm ki, növbəti mövsümdə səfərdə vurulan qol ləğv olunacaq. Belədə komandalar mübarizəni vaxtından əvvəl dayandırmayacaq. Bir sözlə, hər şey Ronaldodan asılı deyil", - deyə "Napoli"nin prezidenti bildirib.

## "Yuventus" səhmlərini itirir

UEFA Çempionlar Liqasının dörddəbir final mərhələsinin cavab oyununda "Ayaks"a 1:2 hesabı ilə uduzaraq mübarizəni dayandıran İtaliyanın "Yuventus" klubunun səhmləri aşağı düşüb. Repubblica.it saytının yaydığı xəbərə görə, Milan birjasında Turin təmsilçisinin səhmləri 24 faiz ucuzlaşıb. Qeyd edilir ki, klub səhmlərin qiymət itkisini 20 faizə endirmək üçün mövqelərini möhkəmləndirməyə çalışır. Xatırladaq ki, ötən həftə Amsterdamda keçirilən ilk oyunda komandalar 1:1 hesabı ilə heç-heçə etsələr də Turində keçirilən cavab qarşılaşmasında "Ayaks" 2:1 hesab ilə qələbə qazanaraq UEFA Çempionlar Liqasının yarımfinal mərhələsinə vəsiqə qazanıb.

* * *

Turinin "Yuventus" klubu ardıcıl 8-ci dəfə İtaliya çempionu olub. Bu çempionluq klubun portuqaliyalı futbolçusu Kriştianu Ronaldo üçün xüsusilə əlamətdar hadisə ilə yadda qalıb. Belə ki, o, İngiltərə, İspaniya və İtaliya çempionatlarının qızıl medallarını qazanan ilk futbolçu olub.Ronaldo daha əvvəl "Mançester Yunayted"in heyətində üç dəfə İngiltərə çempionu, "Real"la isə iki dəfə İspaniya çempionatının qalibi olub. Otuz dörd yaşlı futbolçu "Yuventus"a ötən ilin yayında 117 milyon avro qarşılığında "Real"dan keçib. Onun klubla müqaviləsi 2022-ci ilə qədər nəzərdə tutulub.



## "Şəhərlilər" azarkeşlərinin xərcini çəkəcək

İngiltərənin "Mançester Siti" klubu azarkeşlərini ölkə kubokunun finalına aparmaq üçün bütün xərcləri öz üzərinə götürüb.

Mayın 18-də "Uembli" stadionunda "Uotford"a qarşı keçiriləcək final görüşündə iştirak etmək üçün klub rəhbərliyi 26 avtobus ayırıb. Əgər azarkeş sayı çox olarsa, avtobusların sayının artacağı da gözlənilir.

* * *

"Mançester Siti"nin heyətində ciddi dəyişikliklər gözlənilir. Artıq heyətin 8 futbolçusu klubu tərk etmək niyyətindədir. Belə ki, yay transfer pəncərəsində Leroy Sane, Qabriel Jezus və bir sıra futbolçular klubu tərk etmək niyyətindədirlər. Buna səbəb" "şəhərlilər"in Çempionlar Liqasının 1/4 final mərhələsində "Tottenhem" komandasına məğlubiyyətidir.

Qeyd edək ki, İngiltərə mətbuatında komandanın baş məşqçisi Xosep Qvardiolanın da mövsümün sonunda klubdan gedəcəyi bildirilir.

## "Futbol hakimliyi çox təhlükəli peşədir"

Fransada polis özünü məşhur FİFA referisi Klemen Türpen kimi təqdim edən narkotik ticarətçisini saxlayıb. "L Equipe" nəşrinin yaydığı xəbərdə deyilir ki, həmin şəxs bir neçə il narkotik vasitələrin



Belçika və Fransaya yayılması ilə məşğul olan qruplaşmanın tərkibində yer alıb.

Proses zamanı istifadə olunmuş avtomobillərdən biri Türpenin adına qeydiyyatda olub. Lakin cinayətkarların tutulmasından sonra müəyyən edilib ki, futbol hakiminin bu işə heç bir aidiyyəti yoxdur. Sadəcə, onun adından işi ört-basdır etməkdən ötrü narkotik dilerləri yararlanıb. Qruplaşmanın PSJ-nin hücumçusu Kilian Mbappenin soyadından da yararlandığı məlum olub.

Türpen oxşarının tutulmasını belə şərh edib: "Mənim mənzilim və ya qəsrim, bu işlə heç bir bağlılığım yoxdur. Amma tez-tez təkrarlayıram ki, futbol hakimliyi çox təhlükəli peşədir".

Qeyd edək ki, Klemen Türpen bu həftə Çempionlar Liqasında İtaliya "Yuventus"unun Hollandiya "Ayaks"ına 1:2 hesabı ilə uduzduğu 1/4 final mərhələsinin cavab görüşünü idarə edib.

# Dünya idmanı



## Novak Cokoviçdən 850-ci qələbə

Dünyanın bir nömrəli raketka ustası Novak Cokoviç "Masters" turnirində rəqibi Filipp Kolşrayberə qalib gəlib.

Bununla 31 yaşlı serbiyalı tennisçi karyerasında 850-ci qələbəsini qazanıb.

Novak Vokoviç bu qələbəsi ilə Andre Aqassi (870), Con Makinroy (881), Rafael Nadal (929), Gilyermo Vilas (991), İvan Lendl (1068), Roje Federer (1198) və Cimmi Konnorsdan (1256) sonra qazanılan nailiyyətlərin sayına görə siyahıda 8-ci pillədə qərarlaşıb.





## "Biz dediyimiz hər kəlməyə görə cavab veririk"

UFC üzrə dünya çempionu Həbib Nurməhəmmədov digər döyüşçü həmkarı, rəqibi Konor Makqreqordan danışıb.

Dünya çempionu deyib: "Konor 2016-cı ildən bu yana rinqdə heç bir uğur qazanmayıb. İndi isə 2019-cu ildir. Bu müddət ərzində uğur qazana bilməyən insan, şübhəsiz ki, qalmaqal və söz-söhbətlə məşğul olacaq. Mən bunu anlayıram, amma çoxları başa düşmür.

O insan başqa mühitdə böyüyüb. Ağzından çıxardığı sözə görə cavabdehlik daşımır. Biz isə başqa mühitdə böyümüşük və dediyimiz hər sözə, hər kəlməyə görə cavab veririk. 10 il bundan əvvəl olsaydı, onun cavabını verərdim, amma indi bu, mənim iradəmdən asılı deyil".

Məlumat üçün bildirək ki, Konor Makqreqor ötən ilin oktyabr ayında Həbib Nurməhəmmədova uduzub. Bu məğlubiyyəti həzm edə bilməyən irlandiyalı boksçu hər vəchlə dağıstanlı idmançını və ailəsini təhqir etməyə cəhd edir.

## *Məşhur sumoçu vətəndaşlıqdan imtina edəcək*

Məşhur sumo güləşçisi, yokodzuna dərəcəsinin sahibi, böyük çempion Hakuho Monqolustan vətəndaşlığından imtina edəcək. Buna səbəb idmançının Yaponiyanın vətəndaşı olmaq arzusudur. Hakuho bununla əlaqədar artıq prosedurlara başlayıb.



Xatırladaq ki, Hakuho rekord sayda - 42 dəfə sumo çempionatının qalibi olub. Son iki ildə o, dəfələrlə bildirib ki, güləşçi karyerasını başa vurduqdan sonra Yaponiya Sumo Assosiasiyasının məktəblərindən birinin rəhbəri olmaq və gənc güləşçilər yetişdirmək niyyətindədir. Bunun üçün Hakuho Yaponiya vətəndaşı olmalıdır.

## Məhəmməd Salah çağırış etdi

Məşhur futbolçu Məhəmməd Salah qadınlarla bağlı çağırış edib. 26 yaşlı misirli futbolçu öz ölkəsi də daxil olmaqla islam aləminin kişilərinə səslənib.

"Biz qadınlara qarşı davranışlarımızı dəyişdirməliyik. Onlara hörmət etməliyik. Bu seçim məsələsi deyil. Hər kəs eyni davranmalıdır. Qadınları indi daha çox dəstəkləyirəm. Mənim fikrimcə, xanımlar onlara verilən daha çoxuna layiqdirlər" - deyə, futbolçu bildirib.

O, matçlardan sonra yorğunluğunu 5 yaşlı qızı ilə oynayaraq çıxardığını deyib.

## Həftəlik idman qoroskopu

**Qoç**
Qoçun gücü hər bir idman növündə uğura təminat verir. Bu bürcdən olan insanlar mütəmadi idmanla məşğul olmalıdırlar.

**Buğa**
Buğalar əla hücumçudurlar. Onlar kapitan olmasalar da, komandanı arxalarınca aparırlar. Heç vaxt geri baxmırlar. Hər zaman uğur onlarladır.

**Əkizlər**
Məşqlərinizi gücləndirin. Sizi qarşıda böyük uğurlar gözləyir. Yarışda qarşınıza qoyduğunuz məqsədə çatacaqsınız.

**Şir**
Şirlər həyatda olduğu kimi, idmanda da liderdirlər. Daim formada olmaq onların idman prinsipidir.

**Xərçəng**
Xərçənglər idmandan bir az kənar gəzsələr, yaxşı olar. Bu həftə sizin üçün uğur gözlənilmir.

**Qız**
Aqressiv olsanız da, ağıllısınız. Fikrinizi digər işlərə sərf etməyin. Çünki şəxsi problemləriniz idmanda qazanacağınız nailiyyətlərə mane olmamalıdır.

**Tərəzi**
Özünüzü çox yaxşı və yüngül hiss edəcəksiniz. İdman rəqsləri, basketbol, velosiped, tennis növləri ilə məşğul olsanız, yaxşı olar. Səhər qaçışı da sizin xeyrinizədir.

**Əqrəb**
Əqrəblər gözləməyi və qalib gəlməyi bacarırlar. Onlar nadir hallarda yarışdan məğlub çıxırlar.

**Oxatan**
Oxatanlar hər zaman komandaya müsbət enerji bəxş edirlər. Bu bürc altında doğulanlara səhər qaçışı ilə məşğul olmaq məsləhət görülür.

**Oğlaq**
Bu, sizin həftənizdir. Hansı yarışda iştirak etsəniz, oradan qalib çıxacaqsınız. Amma bu, o demək deyil ki, məşq etməməlisiniz.

**Dolça**
Səhhətinizə fikir verin və idmandan kənar gəzin. Gərgin məşqlər etməyin. Bu, sağlamlığınıza xələl gətirə bilər. Təbiətin qoynunda istirahət əsəblərinizə də müsbət təsir göstərər.

**Balıqlar**
Balıqlar təklikdə məşq etməyi xoşlasalar da, bu həftə komanda yoldaşları ilə birlikdə məşq etməli olacaqlar. Onlar həyatda olduğu kimi, idmanda da ideal insandırlar.



*"Olimpiya dünyası" qəzetinin arxivindən*

(**"Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən**)

olimpnews.az - sizin saytınız




## *Tennisçi diskvalifikasiya edilib*

Braziliyalı Joao Souza dələduzluqda ittiham edilərək tennisdən uzaqlaşdırılıb.

Sabiq tennis ustası danışılmış oyunlarda əli olmaqda günahlandırılır. Söhbət bu ilin fevralında Meksikada təşkil edilən "Çellencers" seriyalı turnirdən gedir. Bu turnirdə o, Roberto Karlosla oyunun birinci dövrəsində 51 dəqiqə ərzində 4:6 və 0:6 hesabı ilə uduzub. İkinci set isə cəmi 17 dəqiqə çəkib.

Onun bilərəkdən rəqibinə məğlub olması və bunun əvvəlcədən razılaşdırılması ehtimal olunur. Hətta bu barədə rəqibinə telefonla mesaj göndərdiyi deyilir.

Hazırda tədqiqat qurtarana qədər Souzanın turnirlərdə iştirak etmək ixtiyarı yoxdur.

## Dörd ölkə bir arada

Rumıniyanın idman və gənclər naziri Boqdan Matei Yunanıstanın Saloniki şəhərində Bolqarıstan, Yunanıstan və Serbiyadan olan həmkarları ilə görüşüb.

Görüşdə 2028-ci və 2030-cu il futbol üzrə dünya çempionatlarında dörd ölkənin bir namizədliyi və bunun təşkili üçün xüsusi komitənin yaradılması barədə memorandum imzalanıb. Komitənin birinci görüşünün iyunun 14-15-də keçirilməsi nəzərdə tutulub.

Eyni zamanda, görüşdə Rumıniyanın Futbol Federasiyasının prezidenti Rızvan Burleanu FİFA və UEFA tərəfindən irəli sürülən tələblər barədə ətraflı məlumat verib.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.